QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 230 (5950) **12 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan qədər əbədiyaşar lider!

## *Bu gün Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 16-cı ildönümüdür*

Səh 2



3

**Əli Əhmədov: "YAP-ın namizədlər siyahısında tanınmış adamlar olacaq"**



4

**Milli inkişaf strategiyasının müəllifi**



3

**MSK 3 partiyanın səlahiyyətli nümayəndələrini qeydə alıb**



# “BP ilə əməkdaşlığımız strateji əhəmiyyətə malikdir”

*Azərbaycan Prezidenti İlham Əliyev BP qrupunun baş icraçı direktorunu qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də BP qrupunun baş icraçı direktoru Robert Dadlini qəbul edib. AZƏRTAC xəbər verir ki, Robert Dadli qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirib:***

-Cənab Prezident, bizə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirəm.

Prezident İlham Əliyev:

-Sizi yenidən görməyə şadam. Azərbaycana yenidən xoş gəlmisiniz. Mənə məlumat verilib ki, siz gələn il vəzifənizi tərk edəcəyinizlə bağlı açıqlama vermisiniz. Bu imkandan istifadə edərək Azərbaycanda biznesin inkişafına verdiyiniz töhfəyə görə sizə minnətdarlığımı bildirmək istərdim. Biz sizinlə bir neçə dəfə birgə layihələrimiz barədə müzakirələr aparmışıq və bildiyimə görə, BP-nin prioritetləri siyahısında bu layihələr ən yüksək mövqedədir. Bilirsiniz ki, BP ilə əməkdaşlığımız strateji əhəmiyyətə malikdir. Mən dəfələrlə ictimai qaydada bu barədə açıqlamalar vermişəm. Çox şadam və fəxr edirəm ki, bu 25 illik tərəfdaşlıq eyni məqsədi olan və bu məqsədlərə çatmaq üçün səmərəli addımlar atmış dostların tərəfdaşlığı olub. Bu, çox vacibdir. Bəzən məqsədlər müəyyənləşdirilir, lakin onlara necə çatmaq aydın olmur. Bizim nümunəmizdə 1990-cı illərin əvvəllərinin çox çətin geosiyasi vəziyyətində birlikdə tarixi layihələri həyata keçirə bildik. Bakı-Tbilisi-Ceyhan neft kəməri, “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun inkişafı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və bu yaxınlarda tamamlanan TANAP. Bu layihələrin hər birinin Azərbaycan üçün tarixi əhəmiyyəti var. Azərbaycanın bugünkü sürətli inkişafı bizim enerji sektorundan əldə etdiyimiz gəlirlər olmadan mümkün olmazdı. Bütün bu illər ərzində biz həqiqətən də tərəfdaşlar kimi çalışdıq, bir-birimizi dəstəklədik, bir-birimizin problemlərinə anlayış göstərdik. Düşünürəm ki, bu, dünyada nadir bir təcrübədir. Hazırda biz bütün vacib layihələrin tamamlanmasına yaxınıq. Mən TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində iştirakımdan şadam. İndi tamamlanmasına yaxın olduğumuz TAP-ın üzərində işləməyimiz lazımdır, - 90 faizi artıq tamamlanıb, - həmçinin BP-nin digər layihələri. Çünki bizim əməkdaşlığımız davam edəcək. “Azəri-Çıraq-Günəşli”nin işlənilməsinin 2050-ci ilə qədər uzadılmasından sonra biz əlavə olaraq aktiv 30 il və daha çox əməkdaşlıq edəcəyik. Beləliklə, bu, indikindən daha da strateji olacaq.

Cənab prezident, bir daha sizə şəxsən verdiyiniz töhfələrə, tərəfdaşlığınıza görə minnətdarlığımı bildirmək istərdim. Sizə uğurlar arzulayıram və əziz qonağımız kimi gələcəkdə sizi daha çox görməyə ümid edirəm.

Robert Dadli:

-Təşəkkür edirəm, cənab Prezident. Bu, Azərbaycanın enerji tarixində çox mühüm hadisədir. Demək istəyirəm ki, onlardan biridir. Sizin uzaqgörən atanız və Siz bunun əsasını qoyarkən bir neçə ölkəni mürəkkəb regionda bir araya gətirdiniz. Yüksək texnologiyalar neft sektoru ilə yanaşı, təbii qaz sektoruna da cəlb edildi və irəlidə hələ də daha çox kəşfiyyat işləri və layihələr var. Fikrimcə, bunlar bir neçə ölkənin sərhədlərini aşmaqla dünyanın ən mürəkkəb layihələridir. Təsəvvür etsək ki, Yer kürəsinin elə bir yeri yoxdur ki, misal üçün, Azərbaycandan Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyaya gedən boru kəmərinin ekvivalentini orada tapmaq olsun. Məncə, Azərbaycandan başqa heç bir ölkə bunu edə bilməzdi. Bu illər ərzində bütün bu ən mürəkkəb ideyaların reallığa çevrilməyini görmək baxımından Sizinlə və Sizin komanda ilə - Rövnəq və Elşadla birgə işləmək şəxsən mənim üçün çox xoş oldu. Bu, möhtəşəmdir. BP-dəki insanların uzun illər boyunca əzmkarlığı çox diqqətəlayiqdir. Cənab Prezident, mən çox məmnunam - BP-də 40 illik fəaliyyətimdən, 10 ilə yaxın baş icraçı direktor olmağımdan və indi də estafeti rahat şəkildə Bernard Luniyə təhvil verməyimdən məmnunam. Bernard çox yaxşı işləyəcək və Azərbaycandakı işlərimizə eyni dərəcədə bağlıdır.

# Azərbaycan ilə Koreya Respublikası arasında əlaqələr uğurla inkişaf edir

*Prezident İlham Əliyev Koreya Respublikası Statistika Komitəsinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Koreya Respublikasının Statistika Komitəsinin sədri Kanq Şin-Uokun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Koreya Respublikasının Statistika Komitəsinin sədri Kanq Şin-Uok Koreya Prezidenti Mun Ce-inin salamlarını dövlətimizin başçısına çatdırdı.***

Görüşdə Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, müxtəlif səviyyəli səfərlərin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyi qeyd olundu. Azərbaycanda müxtəlif layihələrin həyata keçirilməsində Koreya şirkətlərinin iştirakının iqtisadi əməkdaşlığın genişlənməsi baxımından önəmi vurğulandı.

Söhbət zamanı Azərbaycanda digər sahələrdə olduğu kimi, statistika sahəsində də islahatların aparıldığı qeyd edildi, Koreya Respublikasının bu sahədə qazandığı təcrübənin Azərbaycanda maraq doğurduğu bildirildi.

Prezident İlham Əliyev Koreya Prezidenti Mun Ce-inin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Prezidentinə çatdırmağı xahiş etdi.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər








Dekabrın 11-də Yeni Azərbaycan Partiyasının nümayəndələri, partiyanın İdarə Heyətinin, Siyasi Şurasının üzvləri, Milli Məclisin deputatları, rayon və şəhər təşkilatlarının fəalları müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar Fəxri xiyabanda Ulu öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Tarixin yetirdiyi nadir şəxsiyyətlərdən olan Ümummilli lider Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin qovuşuğunda Azərbaycan öz milli mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoyub. Ulu öndər Heydər Əliyevin zəkası bütün maneələri aşaraq və qarşıya çıxan çətinliklərə baxmayaraq, Azərbaycanı tənəzzüldən, hərc-mərclikdən, vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsindən uğurla çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırıb.

Əbədiyaşar liderimiz Heydər Əliyev olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirməklə yanaşı, həm də Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında ölkəmizdə hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiya olan Yeni Azərbaycan Partiyasının banisidir. Ümummilli liderin yaratdığı Yeni Azərbaycan Partiyası bu gün sıralarında 750 mindən çox üzvü birləşdirərək ölkənin avanqard siyasi qüvvəsi kimi respublikamızda YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəhəng quruculuq proseslərinin önündə gedir.

# Əli Əhmədov: "YAP-ın namizədlər siyahısında tanınmış adamlar olacaq"



Yeni Azərbaycan Partiyası vaxtı çatanda növbədənkənar parlament seçkilərinə öz namizədlərinin siyahısını elan edəcək. Bu gündən qanunvericiliyə uyğun olaraq növbədənkənar parlament seçkilərinin rəsmi startı başlayır.

Trend-in məlumatına görə, bunu Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibi - Sədr müavini Əli Əhmədov deyib.

O qeyd edib ki, bu siyahı əsasında da seçki kampaniyası uğurla həyata keçiriləcək: "Bizim vaxtımıza hələ var. Siyahının üzərində iş gedir. Vaxtı çatanda siyahı açıqlanacaq. YAP-ın namizədlər siyahısında tanınmış adamlar olacaq. Hesab edirəm ki, burada yeni və əvvəlki tərkibdə olan simaları da görəcəksiniz. Düşünürəm ki, vətəndaşlarımız YAP-ın təqdim edəcəyi siyahının kifayət qədər ümidverici və Azərbaycan parlamentinin fəaliyyətinin daha da artırılmasına kömək edəcək insanlardan ibarət olacağını görəcək və inanacaqlar".

# Filippin qəzetində ulu öndər Heydər Əliyevə həsr olunmuş məqalə dərc edilib


Heydar Aliyev

the builder of an independent and progressive Azerbaijan

*December 12 is an important date in Azerbaijan's history, the 16th death anniversary of one of its greatest sons, Heydar Aliyev.*

**There are leaders who remain in history, but there are leaders who create history.**

Heydar Aliyev in his 35 years at the helm of leadership, helped lay the solid foundation of modern-day Azerbaijan as an independent and progressive nation. His people look on Heydar Aliyev with fondness and gratitude as a selfless leader who took on his shoulders the building of a nation.

On July 14, 1969, Aliyev became the first secretary of the Communist Party of Azerbaijan under the USSR. "Modernization" was his clarion call during the Soviet period, when Azerbaijan was previously more known as a supplier of raw materials and a provincial outskirt.

At that time, he completely renewed and upgraded the oil industry, and commisioned a number of infrastructure projects, plants, and factories for manufacturing.

**After independence, Heydar Aliyev's philosophy of Azerbaijanism, helped determine the place of Azerbaijan in the modern world.**

**Heydar Aliyev initiated the development of a new Constitution, which was adopted in 1995.**

Aliyev emphasized upgrading education in the country. Education and youth development were always cornerstones in the policies of the farsighted leader.

Aliyev's governance was a holistic program for more prosperity and stability. His pragmatic and balanced foreign policy led to beneficial relations with all nations.

Besides achieving political stability in Azerbaijan, Aliyev's deft touch boosted production, raised local incomes, and attracted more investments.

The "Contract of the Century" signed with the Western oil companies in Baku in 1994 solidified the country's place on the world investment map.

Aliyev's leadership saw more foreign capital flocking into Azerbaijan, which today has the highest growth rates among the former Soviet republics.

The people of Azerbaijan are proud of their great son, who devoted his life to their service at a crucial point in history. Heydar Aliyev's memory lives on in the hearts of millions.

Filippinin məşhur "Philippine Daily Inquirer" qəzetinin 2019-cu il dekabr 11-də nəşr edilən buraxılışında Azərbaycan xalqının ümummmilli lider Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar geniş məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə müstəqil və mütərəqqi Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin istər keçmiş Sovet İttifaqı, istərsə də müstəqillik dövründə ölkəmizin bütün istiqamətlərdə inkişafına verdiyi töhfələrdən, xalqımız qarşısındakı misilsiz xidmətlərindən bəhs edilib.

Bununla yanaşı, müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq fəlsəfəsinin nəticəsi olaraq ölkəmizin beynəlxalq aləmdə müasir və qüdrətli dövlət kimi öz layiqli yerini tutduğu qeyd edilib. Yazıda Ulu Öndərin mənalı həyatının böyük hissəsini öz xalqına həsr etdiyi vurğulanır, onun əziz xatirəsinin Azərbaycan xalqının qəlbində əbədi yaşayacağı bildirilir.

# "Heydər Əliyev tarixə elə möhür vurub ki, Onu inkar etmək istənilən siyasətçi üçün intihar deməkdir"

"Azərbaycan xalqının azadlıq mübarizəsi, keçən əsrdən addım-addım keçdiyi yolda mənəvi-fiziki işgəncələrə dözərək milli mənliyin təsdiqi və müstəqilliyimizin qazanılması, milli-müstəqil dövlət quruculuğu prosesində xalqına bağlı olan vətənpərvər, təcrübəli siyasət və dövlət xadimi Heydər Əliyevin rolu tarixin və hadisələrin ayrı-ayrı dönəm və kəsimlərində faktlar üzrə müxtəlif prizmalardan araşdırılıb öyrənilməyə layiqdir və sözsüz ki, zaman-zaman bu proseslər tarixi fraqmentlər və hadisələrin səbəb-nəticə əlaqəsi bağlılığının araşdırılması, təhlil olunması, nəticələndirilərək örnək alınması baxımından vacibdir". Bunu SİA-ya açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.



Siyasi ekspert bildirib ki, uzaqgörən, müdrik, vətənpərvər, milli təəssübkeşlik, cəsarət və bütün xarakterik keyfiyyətləri sevgi və məhəbbətlə, ədalət və mütəvazi sadəliklə ifadə olunan Heydər Əliyev Azərbaycan xalqı və xüsusən uzun zamandan sonra bünövrəsini və əsas divarlarını qurduğu, ucaltdığı müstəqil Azərbaycan dövlətinin ümumilli lideri və dahi şəxsiyyəti məqamına yüksəldi: "Xalqın lideri Azərbaycançılıq ideologiyası ətrafında xalqı birləşdirdi, dahi dövlət xadimi isə sarsılmaz möhkəm əsaslar üzərində bir usta memar kimi bugün 6-7 əsrlik zəngin və kəsilməz dövlətçilik ənənəsi və təcrübəsi olan dövlətlərlə bütün idarəçilik parametrlərində rəqabət apara bilən və hətta müsbət nümunə göstərilməyə qadir olan qüdrətli müstəqil Azərbaycan dövlətini yaratdı.

Milli mənliyin təsdiqi, müstəqilliyin əldə olunması və müstəqil dövlət quruculuğu, eyni zamanda çox vacib olan siyasi varislik prinsipinin qorunub əməl olunması və ötürülməsi cəmiyyətin, dövlətin və xalqın sabit templə ritmik inkişafını şərtləndirən yarım əsrdən çox zamanı əhatə edən bir dövrü bir xalqın əlindən almağa cəhd edən siyasətçi, yaxud hansısa bir qrup özünə intihar forması seçməkdən başqa heçnə edə bilməz".

# MSK 3 partiyanın səlahiyyətli nümayəndələrini qeydə alıb



2020-ci ilin fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak etmək üçün üç partiya Mərkəzi Seçki Komissiyasına (MSK) müraciət edib. SİA-nın verdiyi məlumata görə, MSK-nın dünən keçirilən iclasında növbədənkənar seçkilərdə iştirak üçün bir sıra siyasi partiyanın səlahiyyətli nümayəndələrinin qeydə alınmasına dair müraciətə baxılıb. Beləliklə, iclasda Yeni Azərbaycan Partiyasının (YAP), Ümid Partiyasının və Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) səlahiyyətli nümayəndələri qeydə alınıb.

# Milli inkişaf strategiyasının müəllifi

### XX əsrin sonu: Azərbaycan xalqının həyatında taleyüklü dövr

Tarixdə rolu olan şəxsiyyətlər haqqında bəhs etmək, onların gördüyü işlərin, dövlət, xalq qarşısında xidmətlərinin ümumi mənzərəsini yaratmaq daim keçilən yolu bir zərurət kimi ortaya qoyur. Tarixdə adı dövlətçiliyin simvoluna çevrilən və onunla birgə çəkilən çox az sayda siyasi liderə rast gəlmək olar. XX əsr tarixində fenomen şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik tarixin bizə bəxş etdiyi milli sərvətdir və onun dəyəri illər keçdikcə daha dərindən dərk olunur, müxtəlif araşdırmaların, dissertasiya işlərinin mövzusuna çevrilir, daha fərqli yanaşmalar əsasında kitabların yazılmasını şərtləndirir. Bu, Heydər Əliyev siyasətinin böyüklüyünün, bu günümüzə və gələcəyə hesablanmasının aydın ifadəsidir. Tarixdə şəxsiyyətlərin rolunu daim xüsusi qeyd edən Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin fəaliyyətini buna bariz nümunə kimi göstərir: "Bütün dövrlərdə - həm 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Azərbaycan Kommunist Partiyasının rəhbəri olduğu dövrdə, həm də müstəqil Azərbaycanın Prezidenti kimi Heydər Əliyev öz fəaliyyəti ilə doğma xalqına xidmət etmişdir."





*Siyavuş Novruzov,*
*YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri*

Tarixi faktlar bu reallığı da təsdiqləyir ki, siyasi liderliyin mahiyyəti dövlətinin, xalqının milli maraqlarına cavab verən inkişaf yolunu müəyyənləşdirmək, ölkəsinə uğur gətirən, daim yüksəkləri fəth etməsini şərtləndirən siyasəti təmin etməkdir. Təbii ki, bu uğurlara yol açan ideyalardır. İdeyaların gerçəkləşməsi ilə sanki möcüzələr baş verir. Bu ideyalar ölkənin dününənin, bu gününün, gələcəyinin əsası kimi dəyərləndirilir. "Əbədiyaşar lider" məfhumu da məhz bu kontekstdən yaranır. Necə ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev belə xatırlanır. O, həyatdan getsə də onun siyasi xətti siyasi idarəçiliyin, milli quruculuğun nəzəriyyəsinə, alternativi olmayan dövlətçilik fəlsəfəsinə çevrilib.

XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövr kimi xarakterizə olunur. Həmin dövrdə baş verən hadisələr ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirdi.

Azərbaycan xalqı müstəqilliyimizin ilk illərində böyük faciələrlə, çətinliklərlə üz-üzə qalsa da, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı və davamlı uğurlara yol açılması bu gün harada yaşamasından asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı tərəfindən böyük qürur hissi ilə xatırlanır, gələcəyimizin daha parlaq, işıqlı olacağına böyük əminlik yaradır. Çünki bu yol hər gün Azərbaycanın tarixinə mühüm uğur səhifəsi kimi yazır. Məhz bunun nəticəsidir ki, ölkəmizin 28 ildə 100 ilə bərabər inkişaf yolu keçdiyi beynəlxalq səviyyədə də etiraf olunur və yüksək dəyərləndirilir.

Azərbaycan sabitlik məkanına çevrildi

Müstəqilliyimizin ilk illəri Azərbaycan tarixinə təlatümlü bir dövr kimi daxil olub. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsindən sonra ilk illərdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu Azərbaycanı "olum, ya ölüm" dilemması qarşısında qoymuşdu. Xalq müstəqilliyin sevincini yaşamaq imkanında deyildi. Xaos, anarxiya, özbaşınalıq, iqtisadi böhran baş alıb gedirdi. Digər tərəfdən isə Azərbaycan Silahlı Qüvvələrinin torpaqlarımızın deyil, ayrı-ayrı qüvvələrin maraqlarının müdafiəsinə xidmət etməsi ərazilərimizin işğalına səbəb olmuşdu. Belə çətin məqamda xalq üzünü ulu öndər Heydər Əliyevə tutmaqla bugünkü uğurlarımızı, müstəqil Azərbaycanın bir dövlət olaraq varlığının təsdiqini təmin etdi.

16 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev "Bizim artıq güclü dövlətimiz vardır- müstəqil Azərbaycan dövləti. Bizim dəqiq konsepsiyamız, inkişaf proqramımız vardır. Bu proqramın reallaşması nəticəsində Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil ediləcəkdir. Əgər gələcəklə bağlı fikirlərimizi bir cümlə ilə ifadə etsək deməliyik: Biz inkişaf etmiş ölkəyə çevrilməliyik! İnkişaf etmiş ölkələrin meyarları vardır. Bunları bilirik və biz hər bir istiqamət üzrə o meyarlara çatmalıyıq-həm siyasi, iqtisadi islahatlar, sosial siyasət və digər istiqamətlərdə" fikirləri ilə ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin bu günümüz üçün möhkəm təməl yaratdığını əsaslı şəkildə diqqətə çatdırır.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən məhz Onun birinci dəfə hakimiyyətə gəlişindən sonra başlayıb. Ulu öndər Heydər Əliyev 1969-82-ci illərdə görülən işləri belə xarakterizə edirdi: "O dövrlərdə yaranmış iqtisadi potensial da bizim böyük sərvətimizdir. Bu sərvət də Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir. Güman edirəm ki, biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbaycanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır."

## Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan dünyaya Günəş kimi doğdu

1993-cü il 15 iyunun tarixə Milli Qurtuluş Günü kimi daxil olması Azərbaycanın müstəqilliyimizin ilk illərində yaşadıqlarına işıq salır. Prezident İlham Əliyev daim çıxışlarında bu çağırışı edir ki, indiki və gələcək nəsillərə Azərbaycanın müstəqillik yolunun heç də hamar olmadığını əsaslı şəkildə çatdırmalıyıq.

Ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərindən bəhs edərkən ilk olaraq göz önünə Onun xilaskarlıq missiyası gəlir. Böyük qətiyyəti, siyasi iradəsi ilə xilaskarlıq missiyasını yerinə yetirən Ümummilli Lider yeni, müasir Azərbaycanı qurdu. O, "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" fikirləri ilə xalqına, dövlətinə bağlılığını ifadə etməklə yanaşı, Azərbaycanın bir dövlət olaraq dünyada tanınmasını, yeri və rolunun möhkəmlənməsini, ən əsası sabitlik diyarı, iqtisadi möcüzələr ölkəsi kimi tanıtmaq istəyini yeganə həyat amalına çevirdiyini diqqətə çatdırdı. Dahi şəxsiyyət bildirmişdir: "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir." Düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkədə daxili sabitliyi təmin edən ulu öndər Heydər Əliyev müstəqillik yolunda ilk addımlarını atan dövlətin qarşısında dayanan vəzifələri bəyan etdi. Sabitlik bütün inkişafın əsası kimi dəyərləndirildi. Bu çağırış xüsusi qeyd olundu ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Bu mühüm məqamı da xüsusi qeyd etmək lazımdır ki, Ümummilli Liderin gərgin fəaliyyəti nəticəsində pərdəarxası oyunlara, siyasi anarxiyaya son qoyuldu, ölkədə cinayətkarlığın qarşısı tam alındı, bütün qanunsuz silahlı dəstələr ləğv olundu. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində alınaraq dövlət müstəqilliyimizin qorunub saxlanılması təmin edildi. Bunlar isə öz növbəsində ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranmasını, bunun da əsasında ilk Konstitusiyanın qəbulunu şərtləndirdi. 1995-ci il 12 noyabrda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və ümumxalq səsverməsi yolu ilə qəbul edilən Konstitusiyamızdan sonrakı dövr dövlətçiliyin möhkəmlənməsi, demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi dövrü kimi xarakterizə olunur. Ümummilli Lider bildirmişdir ki, demokratik cəmiyyətin varlığını təsdiqləyən insan hüquq və azadlıqlarının qorunması, azad mətbuatın formalaşması, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi və sair kimi bütün atributlar ölkəmizdə bərqərar edilməlidir.

Ardı Səh. 5

# Milli inkişaf strategiyasının müəllifi

Əvvəli-Səh-4

Azərbaycanın bu gün demokratiya təcrübəsinin digər ölkələrə nümunə göstərilməsi də dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın gələcək inkişaf yolunun parametrlərini müəyyənləşdirərkən demokratik prinsipləri öndə saxlamasından irəli gəlir: "Müstəqil Azərbaycanda hüquqi, demokratik dövlət qurulmalıdır, Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir və tarixi ənənələrdən, milli ənənələrdən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir." Məlumdur ki, Azərbaycanın demokratiya yolu heç də hamar olmamışdır. Ölkəmizin müstəqilliyini, uğurlarını gözü götürməyən daxili və xarici qüvvələr hər vəchlə Azərbaycanın demokratik inkişafına, bu yolda inamlı addımlarına mane olmağa səy göstərirdilər. Bu gün əlaqələrimizin yüksək səviyyədə olduğu Avropa Şurasına qəbul zamanı ölkəmizin hansı çətinliklə üz-üzə qaldığı məlum olaylardandır. Lakin Heydər Əliyev qətiyyəti və səyi bütün bu maneələri dəf etdi, Azərbaycan demokratik dövlət quruculuğu yolunu sözdə deyil, əməldə sübut edərək, dünyanın ən nüfuzlu təşkilatı olan Avropa Şurasına tamhüquqlu üzv qəbul olundu. Dahi şəxsiyyət Heydər Əliyev bildirmişdir ki, Avropa Şurası Azərbaycana nə qədər gərəkdirsə, Azərbaycan da Avropa Şurası üçün bir o qədər önəmlidir.

### İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir

Ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs sazişinin imzalanması Azərbaycanda daxili sabitliyin təmin olunmasında, digər sahələrdə əhəmiyyətli addımların atılmasında mühüm rol oynadı. Məhz həmin il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. Bu mühüm addım Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirməklə yanaşı, xalqımızın uzun illərdən bəri ürəyində gəzdirdiyi bu istəyinin reallığa çevrilməsi oldu. Daim öz təbii sərvətlərinin əsl sahibi olmaq istəyən Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlarını gördükcə bundan daha da ruhlanır, gələcəyə böyük inamla addımlayırdı. Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neftqaz layihələrinin 2006 və 2007-ci illərdə reallığa çevrilməsi, bunun ardınca dünyanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunu artıran Cənub Qaz Dəhlizinin rəsmi açılışı, 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması, həmçinin Cənub qaz Dəhlizinin əsas tərkib hissələrindən olan TANAP-ın istifadəyə verilməsi və sair kimi biri-birindən mühüm hadisələr "Əsrin müqaviləsi"nin ölkəmizə böyük uğurlar qazandırdığını bir daha dünyaya bəyan edir. Dövlətimizin başçısı İlham Əliyev 2006-cı ildə Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə xalqa təbrikində bütün bu mühüm məqamı xüsusi qeyd etmişdir ki, "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanın iqtisadi imkanlarının, beynəlxalq münasibətlər sistemində yeri və rolunu təsəvvür etmək çətin deyildi. Təbii ki, BTC neft kəməri olmasaydı, BTƏ qaz kəmərindən, bunlar olmasaydı Cənub Qaz Dəhlizindən danışmaq qeyri-mümkün idi. Cənab İlham Əliyev Cənub Qaz Dəhlizini görülən işlərin zirvəsi kimi dəyərləndirir.

Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan ümummilli lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan neft gəlirlərinin şəffaf və ədalətli bölünməsini təmin etdi. Dövlət siyasətinin prioritetlərini müəyyənləşdirən Dövlət Neft Fondu şəffaflıq kriteriyalarına görə nümunəvi qurum kimi dəyərləndirilir. Fondun vəsaitlərinin düzgün istiqamətləndirilməsi və şəffaflığın təminatı əhəmiyyətli sosial-iqtisadi layihələrin həyata keçirilməsini sürətləndirir.

Bu gün böyük inamla qeyd edirik ki, neft siyasətinin məntiqi davamı kimi dəyərləndirilən iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla həyata keçirilir. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoydu. Regionların malik olduğu potensial imkanlardan maksimum istifadə etmək üçün Dövlət proqramları təsdiqləndi və uğurla icra edilir. Bu gün ümumi daxili məhsulda özəl bölmənin payı 85 faiz təşkil edir. Möhtərəm Prezidentimiz İlham Əliyevin bölgələrə hər səfəri yeni obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalır. Son 16 ildə 2 milyondan artıq yeni iş yeri yaradılıb ki, bunun böyük qismi regionların payına düşür.

Ulu öndər Heydər Əliyevin "Neft- Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur" çağırışı bütün dövrlərdə öz aktuallığını qorumaqla yanaşı, dövlət siyasətinin əsasını təşkil edir. Bu mühüm məqama söykənərək, əhalinin sosial müdafiəsinin prioritetliyi daim önə çəkilir, neft gəlirlərinin ədalət prinsipi əsasında bölünməsi, istiqamətləndirilməsi mühüm uğurlara, ən əsası Azərbaycanın özünü dünyaya sosial dövlət kimi təqdim etməsinə yol açır. Bugünümüzün statistikasına diqqət yetirmək kifayətdir. Təkcə cari ilin arxada qalan aylarında 4 milyondan artıq insanı əhatə edən 2 sosial paket təsdiqlənib. Minimum əməkhaqqı, minimum pensiya iki dəfə artırılıb. Dövlətimizn başçısı İlham Əliyev 2003-cü ildə keçirilən andiçmə mərasimində bildirmişdi ki, iqtisadi inkişafa uygun olaraq əməkhaqqı ildə ən azı iki dəfə artırılmalıdır. Ötən 16 ildə həyata keçirilən təkmil sosial-iqtisadi islahatlar Azərbaycanın ən islahatçı ölkə kimi tanınmasını şərtləndirib. Ölkəmiz yeni sosial və iqtisadi çağırışların müzakirəsi üçün ideal məkan kimi qəbul olunur.

### Azərbaycanı təkcə zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq

Ulu öndər Heydər Əliyev, eyni zamanda, bu çağırışı etmişdir ki, Azərbaycanı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq." Müstəqillik yollarında yenicə addımlarını atan hər bir dövlətin özünü təsdiqləməsində, varlığı barədə aydın təsəvvür yaratmasında vacib şərtlərdən biri xarici siyasətini düzgün qurması önə çəkilirdi. Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərin yüksək səviyyədə qurulması, ən əsası bir dövlətin xaricdə varlığı kimi dəyərləndirilən diaspor quruculuğuna xüsusi diqqət göstərilməsi Azərbaycan həqiqətlərinin, tarixinin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynadı. Dahi şəxsiyyət harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıları bir amal-azərbaycançılıq ideyası ətrafında sıx birləşməyə çağırırdı. Öncə ayrı-ayrı dövlətlərdə Azərbaycan cəmiyyətləri, mərkəzləri yaradıldı. Sonra onların vahid mərkəzdən idarə olunmasını təmin etmək üçün 2001-ci il noyabrın 9-10-da Dünya azərbaycanlılarının I qurultayı keçirildi. Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycanı öz Vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz ümummilli lider Heydər Əliyevin səylərinin nəticəsidir. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən - müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə biri-birindən əhəmiyyətli qərarlar qəbul etmişdir. Bu fakt inkaredilməzdir ki, müstəqilliyimizin ilk illərində Azərbaycan haqqında məlumatsızlıq bir sıra problemlərin yaranmasına, erməni yalanlarının ayaq tutub yeriməsinə səbəb olmuşdu. Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra fəaliyyətinin əsas istiqamətlərindən biri məhz ölkəmizin ətrafında yaradılan informasiya blokadasının yarılması oldu və uğurlu siyasəti ilə bu istəyini gerçəkləşdirdi. Məhz Ümummilli Liderin qətiyyətli addımları sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşdı, xarici siyasətimizin əsas məsələsi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişdi, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüququn normativ sənədlərində öz əksini tapdı. Ümummilli Liderin xarici ölkələrə səfərləri zamanı orada yaşayan azərbaycanlılarla görüşməyə səy göstərməsi, onların problemləri ilə yaxından tanış olması, respublikamızla əlaqələrini daha da möhkəmləndirmələri üçün tövsiyələrini verməsi diaspor quruculuğu istiqamətində atılan addımlardan idi.

Dünya azərbaycanlılarının qurultayların ənənəvi olaraq keçirilməsi uğurlarımızın, Azərbaycan diasporunun gördüyü işlərin təqdimatı kimi dəyərləndirilir. Möhtərəm Prezidentimiz İlham Əliyev böyük inam və qətiyyətlə bildirir ki, güclü, qüdrətli Azərbaycan bütün dünya azərbaycanlılarının qürur mənbəyidir. Hazırda ölkəmizin sabitlik diyarı, iqtisadi möcüzələr ölkəsi kimi tanınması, müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkanda yerləşən ölkə olaraq beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, ən əsası dünya tərəfindən inkişafın Azərbaycan modelindən bəhs edilərək təqdir olunması təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan düzgün siyasətə əsaslanır. Bu gün Azərbaycan bayrağının dünyanın ən nüfuzlu təşkilatlarının qarşısında dalğalanması, ölkəmizin dünyada gedən proseslərə təsir imkanlarının artması da deyilənlərin təsdiqidir. Ən əsası 2011-ci ilin mühüm uğurlarından olan Azərbaycanın 193 ölkədən 155- nin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 2019-cu ildə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olan, 120 üzvü sıralarında birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi və sonda qəbul olunan sənəddə Azərbaycanın Dağlıq Qarabağla bağlı mövqeyinin dəstəklənməsi mühüm diplomatik uğurlarımız sırasındadır. Həmçinin dövlətimizin başçısı İlham Əliyevin Rusiyanın Soçi şəhərində dünyanın məşhur "beyin mərkəzləri"ndən biri olan "Valday" Beynəlxalq Diskussiya Klubunun "Şərq şəfəqləri və dünya siyasi quruluşu" mövzusunda XVI illik iclasında, MDB Dövlət Başçıları Şurasının Aşqabad Sammitində çıxışı, "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı, həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünə ev sahibliyi Heydər Əliyev ideyalarının, Prezident İlham Əliyevin uğurlu siyasətinin təntənəsidir. Azərbaycan haqqı, ədaləti müdafiə edən, bütün münaqişəli məsələlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında çözülməsini istəyən ölkə olaraq dünya birliyində yeri və rolunu artırır. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, əvvəlki dövrlərdə Azərbaycan haqqında məlumat vermək, təqdimatlar etmək üçün müxtəlif ölkələrə nümayəndələr göndərilirdisə, bu gün respublikamızın beynəlxalq tədbirlərin keçirilməsi üçün önəmli məkana çevrilməsi həqiqətlərimizin təbliğinə geniş imkanlar yaradır. Bütün bunlar Heydər Əliyev siyasətinin təntənəsidir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin qorunması və inkişafı istiqamətində qoyduğu möhkəm təməl son 16 ildə davamlı uğurları təmin etdi. Dövlətimizin başçısı İlham Əliyevin bu istiqamətdə də atdığı addımların miqyası o qədər genişdir ki, onları tam əhatə etmək qeyri-mümkündür. Hər ilin konkret bir sahənin adı ilə bağlanması Azərbaycanın bu və ya digər istiqamətlərdə malik olduğu imkanlara, ən əsası həmin sahələrin inkişafına yol açır. 2016-cı il ölkəmizdə "Multikulturalizm ili", 2017-ci il "İslam Həmrəyliyi ili", 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili", 2019-cu il "Nəsimi ili" elan edilib. Bütün bunlar tariximizə, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə bağlılığımızı əks etdirir. 2019-cu ildə Azərbaycanın UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsi bütün bu addımların, görülən işlərin ümumiləşdirilmiş ifadəsidir.

### Sülh və inkişaf Azərbaycan dövlətinin strategiyasının təməlini təşkil edir

Xarici siyasətində beynəlxalq hüququn norma və prinsiplərinə xüsusi önəm verən, hər bir məsələnin ədalət prinsipi əsasında çözülməsində maraqlı olan Azərbaycan dövləti daim dünyaya bu çağırışı edir ki, ikili standartlara son qoyulsun, beynəlxalq hüquq normalarının icrası üçün vahid mexanizm müəyyənləşdirilsin, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli təmin edilsin.

Problemin həlli üçün möhkəm hüquqi baza mövcuddur. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Azərbaycanın ərazi bütövlüyü dəstəklənir, erməni işğalçılarının ərazilərimizdən qeyd-şərtsiz çıxarılması öz əksini tapıb. Eyni zamanda, digər beynəlxalq qurumların, dövlətlərin qərar və qətnamələrində də Azərbaycanın mövqeyi dəstəklənir. Əvvəldə təkcə cari ilin ötən dövründə Azərbaycan dövlətinin xarici siyasət uğurlarını qeyd etdik.

Rəsmi Bakı bəyanatlarında bu fikri də səsləndirir ki, problemin sülh yolu ilə həlli imkanları tükənərsə, hərb variantı istisna edilmir. Azərbaycanın tam haqqı var ki, işğal altında olan topaqlarını istənilən yolla azad etsin. Ulu öndər Heydər Əliyev bildirmişdir ki, sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.

Ardı Səh. 6

# Milli inkişaf strategiyasının müəllifi

Əvvəli-Səh-5

Bu kimi bəyanatlar, ən əsası 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs sazişinin imzalanması Azərbaycanın sülh siyasətinə sadiqliyini, həmçinin bütün münaqişəli məsələlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında çözülməsinin tərəfdarı olduğunu nümayiş etdirir. Amma qarşı tərəf, işğalçı Ermənistan qeyri-konstruktiv mövqeyindən əl çəkməzsə, problemin hərb yolu ilə həlli şəksizdir. Azərbaycan Ordusunun gücü, qüdrəti bu fikri böyük inamla söyləməyə əsas verir. Aprel döyüşləri, Naxçıvan qələbələri ordumuzun gücünü və qüdrətini dünyaya nümayiş etdirdi.

Azərbaycan müharibə şəraitində olsa da bütün sahələrdə böyük uğurları ilə diqqətdədir. İşğalçı Ermənistan Azərbaycanla heç bir sahədə rəqabət aparmaq imkanında deyil. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi büdcəsi qədərdir. Xalqımız tam əmindir ki, dövlətimizin qətiyyətli mövqeyi, xalqın iradəsi, beynəlxalq dəstəyin artması fonunda Dağlıq Qarabağ problemi öz ədalətli həllini tapacaq, soydaşlarımız öz doğma yurd-yuvalarına qayıdacaqlar.



## YAP tarixin sınaqlarından şərəflə çıxaraq milyonların partiyası kimi nüfuz qazanıb

Ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən geniş bəhs edərkən bu gün milyonların sevgisini qazanan Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. 1992-ci il noyabrın 21-də təsis konfransını 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyasının sıralarında hazırda 750 minə yaxın üzv birləşib. Partiyanın hər bir üzvü Heydər Əliyev ideyalarının, onun siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğatçısıdır. Ulu öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" tezisi bütün dövrlərdə partiyanın yoluna işıq salır, onun hədəflərini açıqlayır. Dövlətimizin başçısı İlham Əliyevin gerçəkliklərə əsaslanaraq söylədiyi "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir" fikirləri Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yolun aydın mənzərəsini yaradır. Yaranandan cəmi 6 ay sonra iqtidar partiyasına çevrilən YAP dövlətə, xalqa xidmət missiyasını Azərbaycanın davamlı inkişafına, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılmasına verdiyi töhfələri ilə nümayiş etdirir.

Azərbaycanın hər uğurunda öz payı olan Yeni Azərbaycan Partiyasının ölkədə keçirilən bütün seçki proseslərindən uğurla çıxması da möhkəm təmələ əsaslanan siyasətə, xalq-iqtidar birliyinin möhkəmliyinə əsaslanır. Tarixə qısa nəzər salsaq, Yeni Azərbaycan Partiyasının 1998, 2003, 2008, 2013 və 2018-ci il prezident, 1995, 2000, 2005, 2010, 2015-ci il parlament, 1999, 2004, 2009, 2014-cu il bələdiyyə seçkilərində uğur qazanmasını şərtləndirən də məhz bu amillərdir. Bununla yanaşı, partiyanın Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi məqsədilə bu günədək üç dəfə ümumxalq səsvermısinin keçirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüslər də xalqımız tərəfindən dəstəklənmişdir. "Ona görə iqtidar partiyasıyıq ki, bizim siyasətimiz xalq siyasətidir. Deyə bilərəm ki, biz ümumxalq partiyasıyıq. Çünki Azərbaycanın qarşısında duran bütün məsələlərdə biz fəal iştirak edirik. Biz öz əməyimizlə bu siyasəti aparırıq" söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev bildirir ki, əməlimiz, işlərimiz, verilən sözlərə sadiqliyimiz Yeni Azərbaycan Partiyasının nüfuzunu artırır, Azərbaycanın siyasi səhnəsində yeganə ciddi siyasi qüvvəyə çevirir.

Noyabrın 28-də Yeni Azərbaycan Partiyası Siyasi Şurasının parlamentdə təmsil olunan partiya üzvlərinə parlamentin buraxılması təşəbbüsünü irəli sürməsini tövsiyə etməsi, bu tövsiyəyə uyğun olaraq Milli Məclisin dekabrın 2-də keçirilən plenar iclasında dövlətimizin başçısı İlham Əliyevə müraciət, həmçinin ölkə Prezidentinin parlamentin müraciətində göstərilmiş məsələnin Konstitusiyaya uyğunluğu ilə bağlı Konstitusiya Məhkəməsinə sorğu göndərməsi, dekabrın 4-də Konstitusiya Məhkəməsinin Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğun olması barədə qərarı, dövlətimizin başçısı İlham Əliyevin 5 dekabr 2019-cu il tarixli "Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Sərəncamı da Yeni Azərbaycan Partiyasının davamlı inkişafa, təkmilləşməyə verdiyi töhfələrinin miqyasını genişləndirmək istəyindən irəli gəlir. Xalqımız tam əmindir ki, ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə davam etdirən, təkmil islahatların müəllifi kimi tanınan ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin gördüyü işlərin nəticəsində 23 dekabr bələdiyyə seçkiləri, eyni zamanda, gələn il fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkiləri Azərbaycanın, partiyanın tarixinə növbəti uğur, qələbələr səhifəsini yazacaq.

## Heydər Əliyev yolu davamlı uğurların əsasıdır

2003-cü ildən başlanan Böyük yolun davamı Azərbaycana daha möhtəşəm uğurlar qazandırıb. Dayanıqlı inkişafın təmin edilməsi üçün ciddi islahatların aparılması əsas hədəflərdən biri kimi qarşıya qoyuldu: "İslahatlara alternativ yoxdur... Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər." Uğurlara yol açan düşünülmüş və məqsədyönlü siyasət, ayrı-ayrı sahələri əhatə edən Dövlət proqramları, ənənəyə uyğun olaraq hər ilin bir sahənin adı ilə bağlanması və bu istiqamətdə təkmil islahatların həyata keçirilməsi Azərbaycanın beynəlxalq maliyyə qurumlarının, reytinq agentliklərinin hesabatlarında da liderliyini qorumasını şərtləndirir. İnkişaf modeli dünyaya nümunə göstərilən Azərbaycana bu gün hansı tərəfdən baxsaq təkmilləşməni, yeniləşməni görərik.

İdarəetmə sistemində təkmilləşmə, kadr hazırlığı, dövlətimizin gəncləşmə siyasəti yeni-yeni hədəflərin gerçəkləşməsini təmin edir. Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimiz reallıqdır. 2016-cı ildə keçirilən ümumxalq səsverməsinə çıxarılan məsələlər sırasında Prezidentlik müddətinin 7 ilə qədər artırılması, eyni zamanda, vitse-prezidentlik institutunun yaradılması ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. 2017-ci ildə dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi davamlı inkişafa böyük dəstək kimi dəyərləndirildi. Ötən iki ildən artıq dövr ərzində Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi gördüyü işlərə diqqət yetirsək, miqyasının nə qədər böyük olduğunu görərik. Dövlətçiliyimizin möhkəmləndirilməsi, hərtərəfli inkişafın təmin edilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, Azərbaycanın mədəniyyətinin, tarixinin, milli-mənəvi dəyərlərinin təbliği Birinci vitse-prezidentin fəaliyyətinin əsasını təşkil edir. Mehriban xanım Əliyevanın xarici siyasətimizin əsas istiqaməti olan ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafına töhfələri də böyükdür və yüksək dəyərləndirilir. Azərbaycanın Birinci vitse-prezidentinin bu günlərdə Rusiyaya rəsmi səfəri, iki ölkə arasında münasibətlərin inkişafına verdiyi töhfələrə görə Rusiya Prezidenti V.Putin tərəfindən "Dostluq" ordeni ilə təltif olunması Mehriban xanım Əliyevanın Azərbaycanın beynəlxalq aləmdə yeri və rolunun artması istiqamətində göstərdiyi səylərin tərkib hissələrindəndir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bilavasitə Heydər Əliyev irsinin təbliği missiyasını yerinə yetirən Heydər Əliyev Fondunun prezidenti kimi bu istiqamətdə atdığı addımlar təqdirəlayiqdir. "Azərbaycanın taleyi Heydər Əliyevin taleyi ilə əbədi olaraq bağlandı" söyləyən Mehriban xanım Əliyeva, eyni zamanda, bildirir ki, Heydər Əliyevin həyatı böyük bir epoxanın aynası kimi ölkəmizin sevincli-kədərli günlərini və anlarını, Azərbaycanın bu tarix yollarını özündə əks etdirir. Belə insanlar tarixin mürəkkəb anlarında bütün çətinlikləri dəf edərək həmişə zəfər çalır, qalib gəlirlər. Heydər Əliyev qalibiyyətinin nəticəsi müasir müstəqil Azərbaycan Respublikası və onun bugünkü nailiyyətləridir.

Təbii ki, bir yazıda Heydər Əliyev siyasətinin uğurlarını əhatə etmək mümkün deyil. Möhtərəm Prezidentimiz İlham Əliyevin fikirlərinə istinad etsək, uğurlarımızın ümumiləşdirilmiş ifadəsini yaradarıq: "Bu gün Heydər Əliyev siyasəti bütövlükdə bütün sahələrdə davam etdirilir. 2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərərək Prezident vəzifəsinə seçdiyi gündən bu günə qədər bu siyasətə sadiqəm. Mən 2003-cü ildə bu barədə sözümü demişəm. Mən bu siyasətə sadiq qalacağam və 2003-cü ildən bu günə qədər Azərbaycanda gedən uğurlu inkişaf Heydər Əliyev siyasətinin təntənəsidir, müstəqil Azərbaycanın təntənəsidir."

# Heydər Əliyev yolu Azərbaycanı daha böyük zirvələrə aparacaq



*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

***- Mübariz müəllim, dekabrın 12-i Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günüdür. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir. Ulu Öndərlə bağlı xatirələrinizi bizimlə bölüşməyinizi istərdik...***

- Ulu Öndər Heydər Əliyevin anım günü xalqımız tərəfindən böyük ehtiramla yad edilir. Bütün dünya azərbaycanlıları harada yaşamasından asılı olmayaraq Heydər Əliyevin xatirəsinə ehtiram göstərir. Ümummilli Liderimiz Heydər Əliyev xalqımız üçün böyük bir siyasi irs, dövlətçilik məktəbi, dövlətçilik yolu qoyub. Prezidentimiz cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqının yeganə yolu Heydər Əliyev yoludur. Heydər Əliyev elə böyük şəxsiyyətdir ki, Onun xalqımız üçün gördüyü misilsiz işləri saymaqla bitirmək mümkün deyil. Bu fəaliyyət yeni nəslə mütləq çatdırılmalıdır. Gənc nəsl Ulu Öndərimiz haqqında məlumatları kitablardan oxuyur, televiziyalardan izləyir və s. Amma elə nəsil var ki, Onunla bir dövrdə yaşayıb, işləyib, fəaliyyətinin nəticələrini öz həyatında hiss edib. Yeni Azərbaycan Partiyasının funksioneri kimi mən Ulu Öndər Heydər Əliyevlə tədbirlərdə iştirak etmişəm, görüşmüşəm, Onun dəyərli tövsiyələrini dinləmişəm.

Ulu Öndər bizim xatirəmizdə əbədi yaşayır. Elə xatirələr var ki, heç zaman yaddan çıxmaz. Mən Heydər Əliyevi ilk dəfə canlı olaraq tələbəlik illərində-1973-1978-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsində təhsil alarkən görmüşəm. O vaxtlar yeni il ərəfəsində axşam saat 7-8 radələrində Bakının mərkəzində yerləşən "Azərbaycan" kinoteatrının yanında tələbə yoldaşlarımızla gəzirdik. Kinoteatrla üzbəüz ərzaq dükanı var idi. O vaxt belə dükanlara "qostranom" deyirdilər. İlk dəfə Heydər Əliyevi orda gördüm. O vaxt Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi, SSRİ Kommunist Partiyasının Siyasi Bürosunun üzvlüyünə namizəd idi. Biz tarix fakültəsinin tələbəsi olaraq bu vəzifənin nə qədər böyük olduğunu bilirdik. Biz Heydər Əliyevin çox yaxınında dayanmışdıq. O, ətrafındakı insanlarla söhbət etdi, o cümlədən bizə də suallar verdi, təhsilimizlə maraqlandı. Bu xoş hadisəni hər zaman xatırlayıram.

Daha sonra müstəqillik illərində Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra siyasi proseslərdə iştirak və YAP-da vəzifə daşımağım Onunla görüşmək, birgə tədbirlərdə iştirak etmək, tövsiyə və tapşırıqlarını dinləmək imkanı yaratdı. Kim ki, Heydər Əliyevlə işləyib, hesab edirəm ki, bu, onun üçün ən unudulmaz xatirələrdir.

Hesab edirəm ki, Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük tarixi şəxsiyyətlərdən biridir. Heydər Əliyev dövlət başçısı olması ilə bərabər çox həssas, insanlara qarşı çox diqqətcil idi. Heydər Əliyevdə əsl lider xüsusiyyətləri və keyfiyyətləri vardı. Bir sözlə, Ulu Öndər Heydər Əliyev bizim yaddaşımızda silinməz izlər qoyub. Bu gün yeni nəsl Heydər Əliyevin nəhəng fəaliyyətini, Onun zəngin irsini dərindən öyrənərək mənimsəməkdədir.

***- Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsini respublikamızın həyatında dönüş nöqtəsi hesab etmək olarmı?***

- Əlbəttə ki, Ulu Öndər Heydər Əliyevin hələ sovetlər dönəmində hakimiyyətə gəlməsi Azərbaycanın həyatında dönüş nöqtəsi idi. Bilirsiniz ki, Ulu Öndər hakimiyyətə gələnə qədər Azərbaycan keçmiş ittifaq miqyasında geridə qalan respublikalardan biri idi, aqrar respublika hesab olunurdu. Amma 1969-cu ildən sonra Heydər Əliyevin misilsiz xidmətləri nəticəsində Azərbaycan müttəfiq respublikalar arasında öncül yerə yüksəldi. Tarixdə şəxsiyyətin rolunu heç kim inkar edə bilməz. Və Heydər Əliyev fəaliyyəti ilə bu fikri bir daha təsdiqlədi. O, misilsiz xidmətləri sayəsində 1969-1982-ci illərdə Azərbaycanı haradan haraya gətirdi. Aqrar respublika olan Azərbaycan sənaye-aqrar respublikasına çevrildi. Bu illər ərzində respublikamızda xeyli sayda böyük sənaye müəssisələri yaradıldı, kənd təsərrüfatında yüksək inkişaf baş verdi, çoxlu sayda ali məktəblər açıldı. Eləcə də, yeni, savadlı, intellektual ziyalı nəsli formalaşdı, elm, yaradıcı insanların dünya miqyasında tanınması, yüksək dövlət mükafatları ilə təltif olunmaları istiqamətində tədbirlər görüldü.

Yeri gəlmişkən, qeyd edim ki, biz bu gün böyük mütəfəkkir şairimiz İmadəddin Nəsiminin 650 illiyini böyük təntənə ilə qeyd edirik. Amma Heydər Əliyev hələ sovetlər dövründə Nəsiminin 600 illiyi UNESKO səviyyəsində qeyd edilməsinə nail olmuşdu. Bu hadisə tarixi şəxsiyyətlərimizə sahib çıxmaq deməkdir. Yəni, Ulu Öndərimiz bütün fəaliyyəti ilə xalqımızın gələcəyi üçün böyük fədakarlıqlar göstərib.

Ulu Öndər birinci hakimiyyəti dövründə Azərbaycanın müstəqilliyinin iqtisadi, ideoloji və kadr bazasını formalaşdırdı. O dövrdə özünü təmin etmək imkanı olan respublikalardan biri Azərbaycan idi. Eləc də, gənclər keçmiş ittifaq miqyasında nüfuzlu ali məktəblərdə təhsil almağa göndərilirdi. 1978-ci ilin Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Həmçinin ziyalılar, yaradıcı insanlar milli ruhda əsərlər yazmağa başladılar. Bütün bunlar özünəqayıdışın nümunələri idi. Bir sözlə, Ulu Öndərin bu fədakarlığı nəticə verdi və həmin baza əsasında Azərbaycan sonradan müstəqilliyə qovuşdu.

***- Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətinin ikinci mərhələsi haqqında nə deyə bilərsiniz? Bu dövrün müasir tariximizdə əhəmiyyəti nədən ibarətdir?***

- Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı həm strateji, həm də ümummilli baxımdan çox mühüm əhəmiyyət kəsb edən hadisə idi. Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı günü milli müstəqil dövlətimizin həyatında, bütövlükdə Azərbaycanın tarixində müstəsna yer tutan günlərdən biridir.

- Hər bir hadisəyə nəticəsinə görə qiymət verilir. Heydər Əliyevin 15 iyun 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtması böyük hadisə olmaqla Azərbaycan üçün ümummilli baxımdan ciddi nəticələr verdi. Ümummilli Liderimizin siyasi hakimiyyətə qayıdışı milli müstəqil dövlətimizin həyatında dönüş nöqtəsi idi. Bu hadisə nəticə etibarilə müstəqilliyimizin əbədi, dönməz olmasında çox mühüm və əhəmiyyətli rol oynadı. Bu qayıdış milli müstəqilliyimizin əbədiliyinin təminatı demək idi.

Heydər Əliyev hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycanı dağılmaqdan, ölkəmizi iflasdan, iqtisadi tənəzzüldən, xaosdan, özbaşınalıqdan xilas edərək inkişaf yoluna qədəm qoymaq üçün zəmin yaratdı. Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdana qədər Azərbaycanda total böhran vəziyyəti hökm sürürdü. Cəmiyyətin bütün sahələrində Azərbaycan xalqının maraqlarına uyğun olmayan vəziyyət mövcud idi. Onun hakimiyyətə gəlişindən sonra qısa zaman kəsiyində həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda regionda öz mövqelərini möhkəmləndirdi, sosial, mənəvi, iqtisadi, psixoloji sahələrdə Azərbaycan millətinin maraqlarına uyğun siyasət həyata keçirdi.

Heydər Əliyev müstəqil dövlətimizin təməl prinsiplərini yaradıb. Bu gün Azərbaycan həmin prinsiplər əsasında inkişaf edir. Bu təməl prinsipləri müasir çağırışlara uyğun olaraq müəyyən yeniliklərə məruz qalsa da, onun nüvəsi dəyişməzdir.

***- Mübariz müəllim, Ulu Öndərin xalqımızın qarşısındakı ən böyük xidmətlərindən biri də möhkəm təməllər üzərində qurulan bu dövlətin inkişaf siyasətinin davam etdirilməsi ilə bağlı siyasi varis yetişdirmək oldu. Bu gün Heydər Əliyev siyasi kursunun həyata keçirilməsi haqqında nə deyə bilərsiniz?***

- Azərbaycanın dövlət idarəçiliyində siyasi varislik anlayışı var. Siyasi varislik prinsipi Yeni Azərbaycan Partiyasının proqramında da öz əksini tapır. Bu prinsip fiziki cəhətdən şəxslərin hakimiyyətdə bir birini əvəz etməsi demək deyil. Burada söhbət dövlətin söykəndiyi təməl prnsiplərinin davam etməsindən gedir. Ona görə də, hər bir cəmiyyətdə varislik prinsipi olmalıdır. Bu prinsip pozularsa təbəddülatlar baş verə bilər.

Məsələn, Türkiyədə bu dövlətin qurucusu Mustafa Kamal Atatürkün müəyyən etdiyi pinsipləri var. Türkiyədə bir çox partiyalar hakimiyyətə gəlsə də, həmin prinsiplər təməl olaraq bu gün də qalır. Bu mənada Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi prinsiplər dövlətçiliyimizin təməl prinsipləridir və onu heç kim təftiş edə bilməz. Azərbaycançılıq ideologiyası, qanunçuluq, hakimiyyətin mənbəyinin xalq olması, vətəndaş həmrəyliyi təməl prinsiplərimizdir. Ulu Öndərin müəyyən etdiyi prinsiplər ölkəni daim irəliyə aparır. Prezidentimiz İlham Əliyevin siyasəti də bu təməllər üzərindədir və bu gün ölkəmiz uğurla inkişaf edir.

Bu gün Azərbaycan nəinki regionun lider dövlətidir, eyni zamanda dünyada böyük nüfuza sahibdir. Azərbaycanın dinamik inkişafı bütün sahələri əhatə edir, əhalinin rifahı davamlı olaraq yüksəlir, Azərbaycan gücünü, qüdrətini daha da artırır. Ölkəmizin həyata keçirdiyi qlobal layihələr beynəlxalq miqyasda Azərbaycanın mövqelərini gücləndirir. Bu amillər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə də dəstək verməkdədir.

Beləliklə, bu nailiyyətlərin əsasında Heydər Əliyev siyasəti dayanır. Biz Azərbaycan xalqı olaraq Ulu Öndərin əziz xatirəsini həmişə yad edirik və bundan sonra da edəcəyik. Heydər Əliyev yolu Azərbaycanı daha böyük zirvələrə aparacaq.

## "Bu gün inkişaf edən dövlətimiz məhz Ulu Öndərin əsəridir"

"Bu gün Azərbaycan xalqı öz Ulu Öndərini şükran və rəhmətlə anır. Ümummilli Liderimizin Azərbaycanda hakimiyyətə gəlməsi, əslində Azərbaycanın, Azərbaycan dövlətçiliyinin xilası oldu, Azərbaycanın yeni mərhələdə inkişafının əsaslarını yaratdı". Bunu SİA-ya "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, böyük dövlət xadimi Ulu Öndər 1990-cı illərin əvvəllərində Azərbaycan xalqının tələbi ilə hakimiyyətə gəldi: "Çünki, əslində "91-lər"in müraciəti Azərbaycan xalqının müdrikliyinin ümumiləşmiş bir forması idi ki, bu, özündə dövlətçiliyimizi xilas etməyi ehtiva edirdi. Böyük dövlət xadimi Heydər Əliyev məhz belə bir tarixi mərhələdə bütün məsuliyyəti öz üzərinə götürərək Azərbaycanda xalqın dəvəti ilə hakimiyyətə gəldi və Azərbaycan dövlətçiliyini xilas etdi. Bu, Onun Azərbaycan dövlətini xilas etmək missiyası idi. Əlbəttə ki, ilk növbədə Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etmək lazım idi ki, bu çox mürəkkəb bir məsələ idi. Çünki Azərbaycanda vətəndaş müharibəsi başlamışdı, etnik, regional separatçılıq var idi. Bir tərəfdən də Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal edilirdi. Belə bir mərhələdə atəşkəsə nail olmaq, Azərbaycanda etnik-separatçılığın qarşısını almaq, ictimai-siyasi həmrəyliyi təmin etmək, çökən bütün dəyərlərin yerinə yeni dəyərlər təqdim etməyi bacarmaq, eyni zamanda Azərbaycanda ictimai harmoniyanı, ictimai rəyi və s. təmin etmək çox mürəkkəb bir məsələ idi. Bunların hər biri ayrılıqda mühüm bir tarixi hadisə idi. Böyük dövlət xadimi öz təcrübəsinə əsaslanaraq, öz siyasi iradəsinə söykənərək bunların hamısını həll etdi və bundan sonra Azərbaycan dövlətinin hüquqi, iqtisadi əsaslarını, siyasi və mənəvi əsaslarını formalaşdırmaqla sonrakı mərhələdə Azərbaycan dövlətinin inkişafını təmin etmiş oldu. Bu gün inkişaf edən dövlətimiz məhz Ulu Öndərin əsəridir. Bu gün Azərbaycan Prezidenti tərəfindən ölkəmizin beynəlxalq nüfuzunun artırılması ilə bağlı görülən işlər, Azərbaycanın sosial, hüquqi dövlət kimi inkişaf etdirilməsi məhz Ulu Öndərin əsasını qoyduğu iqtisadi, siyasi, mənəvi, hüquqi hadisələr üzərində baş tutmaqdadır ki, bu da Azərbaycan xalqına böyük rifah, onun dövlətçiliyinin rifahı üçün yeni şərtlər yaradır".

# Bəhruz Quliyev: Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası dövlətçiliyimizin möhkəmləndirilməsində önəmli rol oynayıb



***"Ulu Öndər Heydər Əliyev ilk növbədə böyük Azərbaycanlı idi və Onun bizlərə miras qoyduğu Azərbaycançılıq, milli-mənəviyyatın qorunub-saxlanılması ideologiyası xalqımızın, dövlətçiliyimizin möhkəmləndirilməsində əhəmiyyətli rolunu oynayıb". Bu fikirləri "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.***

B.Quliyev bildirib ki, məhz Ulu Öndərin uzaqgörənliyi, xalqına və dövlətinə verdiyi sonsuz dəyəri nəticəsində Azərbaycanda xalq-iqtidar birliyi formalaşdırılmağa başlandı və qüdrətli, güclü dövlətin təməli qoyuldu: "Əlbəttə ki, bu danılmaz reallıq ölkəmizin çoxşaxəli inkişafında, sabitliyə doğru irəliləməsində, dünya birliyində layiqli yer tutmasında və bu birlikdə yer almasında öz əvəzsiz, müsbət təsirlərini göstərdi. Çünki o dövrlərdə məhv olmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycan xalqı əminliklə öz Liderinə etimad etdi və bu etimad təbii ki, hər bir azərbaycanlının gələcəyə inamlı baxışında öz təşəkkülünü tapmış oldu". Onun sözlərinə görə, məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi ideyasındakı təməl prinsiplərindən biri də milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində qurduğu siyasi konsepsiyası olub ki, bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev bu məfkurənin qorunub-saxlanılması, gələcək nəsillərə ötürülməsi ilə bağlı qərarlı addımlar atır, bunu millətin, dövlətin, xalqın iradəsinə xas olduğunu bütün çıxışlarında vurğulayır: "Biz bilirik ki, hər bir xalqın özünəməxsus milli-ideoloji baxışı var və Ulu Öndər Heydər Əliyev bu mühüm məqamı bilavasitə dövlətçilik, Azərbaycançılıq siyasəti ilə sintezləşdirərək, möhkəm təməlləri qoymuş oldu. O cümlədən, ölkəmizin başçısı cənab İlham Əliyev həmin siyasəti daha da təkmilləşdirir, milli dəyərlərimizin qorunaraq-saxlanılması barədə tezislərini bütün çıxışlarında vurğulayır, xüsusilə gənclərimizin həmin istiqamətdə gələcək həyatlarını qurmalarına öz mühüm tövsiyələrini verir."

B.Quliyev daha bir tarixi məqamı da xatırladaraq bildirib ki, artıq bu dövlətimizin ideoloji prinsipidir və bu prinsip ölkəmizin daha da qüdrətli, güclü olması maraqlarına dayanır: "Əbəs deyil ki, müxtəlif hadisələr baş verərkən, Heydər Əliyevin bir çağırışı ilə onminlərlə insan Onun səsinə-səs verir, Liderinin ətrafında birləşirdi. Bax, bu gerçəklik möhkəm əsaslara söykənən dövlətçilik, Azərbaycançılıq ruhunun, ideologiyasının bariz təcəssümü idi".

"Səs" qəzetinin baş redaktoru bu ideoloji prinsiplərin uğurla davam etdirildiyini diqqətə çatdırıb: "O da sirr deyil ki, Azərbaycançılıq ideologiyasından qaynaqlanan xalq-iqtidar vəhdəti dayanmaqdadır. Cənab İlham Əliyevin müstəqil Azərbaycanımızı dünya birliyi çərçivəsində ən mötəbər yerlərə ucaltmasında, ölkəmizin beynəlxalq arenadakı liderlik mövqeyinin möhkəmləndirilməsində, nəhəng layihələrin təşəbbüskarı və ideyavericisi kimi çıxış etməsində, ümumiyyətlə, hər bir uğurlarımızda xalqın Prezidentinə etimadı və Prezidentin xalqına güvənməsi faktoru dayanıb. Əlbəttə, bu yolu qazanmaq, əldə etmək və qorumaq çox çətin siyasi-tarixi proseslərlə müşahidə edilib və məhz Azərbaycançılıq ideologiyasının Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılması, Prezident İlham Əliyev tərəfindən isə davam etdirilməsi faktı qeyd edilən bütün fikirləri kifayət qədər təsdiqləmiş olur".

B.Quliyev onu da vurğulayıb ki, bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, xanım Mehriban Əliyevanın fəaliyyəti əsasında da qeyd edilən reallıqlar dayanır və bu reallıqlar əlbəttə ki, bütövlükdə milli-mənəvi dəyərlərin, milli məfkurənin, Azərbaycançılıq ideologiyasının təməllərini möhkəmləndirir: "Əbəs deyil ki, Mehriban xanım Əliyevanın bu kimi önəmli məsələlərdə daim öndə olması, ölkəmizin, xalqımızın səsinin dünya birliyinə çatdırılması kimi faktorlar dövlət siyasətimizin tərkib hissəsinə çevrilib və söz yox ki, bu siyasətin mərkəzində xalqın dəstəyi, sevgisi amili də dayanmaqdadır. Bu baxımdan, Heydər Əliyev adının yaşaması, yaşadılması artıq bir vəhdət şəklini almışdır və bu vəhdət əbədi olaraq öz mövcudluğunu qoruyub-saxlayacaq".

# Heydər Əliyev Mərkəzində Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" üçcildliyinin təqdimatı olub






***Dekabrın 11-də Heydər Əliyev Mərkəzində tanınmış yazıçı-publisist, Milli Məclisin deputatı, Xalq yazıçısı, Əməkdar jurnalist Elmira Axundovanın rus dilində "Heydər Əliyev. Şəxsiyyət və zaman" ("Qeydar Aliev. Liçnostğ i gpoxa") üççildlik roman-tədqiqatının təqdimat mərasimi keçirilib.***

AZƏRTAC xəbər verir ki, roman-tədqiqatda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyəti canlı şahidlərin, müxtəlif vaxtlarda Ulu Öndərlə birgə işləmiş şəxslərin xatirələri və arxiv materialları əsasında əks etdirilib.

Tədbirdə çıxış edən kitabın müəllifi Elmira Axundova bu genişmiqyaslı layihənin həyata keçirilməsinə 2003-cü ildə Heydər Əliyevin öz xeyir-duası ilə başladığını, 2013-cü ildə isə başa çatdırdığını bildirib. O deyib ki, layihə əvvəlcə üçcildlik formatda nəzərdə tutulmuşdu, lakin sonradan altıcildlik roman-tədqiqata çevrildi. Bu illər ərzində əsər bir neçə ölkədə və bir neçə xarici dildə - ingilis, macar, türk, tacik, rus dillərində işıq üzü gördü. Bu, ikinci nəşrdir. Bu əsər Ukrayna və gürcü dillərinə də tərcümə olunub və çapa hazırlanır. Kitabda Heydər Əliyev haqqında bu günə qədər məlum olmayan faktlar toplanıb. Roman-tədqiqat arxiv sənədləri və rəsmi sənədlər, Azərbaycan xalqının Ümummilli Liderinin dostları, doğmaları və məsləkdaşları ilə yüzlərlə söhbətin lent yazıları əsasında qələmə alınıb.

Elmira Axundova çıxışında Heydər Əliyev şəxsiyyətinin təşəkkülündən, liderlərin necə yetişməsindən, Ümummilli Liderimizin fenomenini şərtləndirən xarakterik xüsusiyyətlərindən danışıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin komitə sədri, akademik İsa Həbibbəyli deyib ki, təqdim olunan kitab Elmira Axundovanın çoxillik elmi-publisistik fəaliyyəti nəticəsində ərsəyə gəlmiş çox sanballı bir əsərdir. Bu kitab mütaliə etdiyimiz əsərlər içərisində görkəmli dövlət xadimi Heydər Əliyevə həsr olunmuş ən mükəmməl bioqrafik roman-epopeyadır. Bu roman-epopeyanın ümumiləşdirilmiş, ixtisar olunmuş, əslində yenidən işlənmiş variantı olan üçcildlik o qədər yaradıcı düşüncə əsasında hazırlanıb ki, kitabda nəyinsə ixtisar olunmasını hiss etmək mümkün deyil. Bir sözlə, bu, Heydər Əliyev şəxsiyyətini daha da ucaldan, sözün əsl mənasında, dünya miqyasında möhtəşəm bir abidə səviyyəsinə qaldıran əsərdir.

Azərbaycan Yazıçılar Birliyinin katibi, Xalq yazıçısı Çingiz Abdullayev bu əsərin üzərində böyük əmək sərf edildiyini vurğulayıb. Qeyd edib ki, "Heydər Əliyev: Şəxsiyyət və zaman" üçcildliyi ümummilli lider Heydər Əliyev haqqında Moskvada nəşr edilmiş ilk böyük əsərdir. Qazaxıstanın Xalq yazıçısı Oljas Süleymenov üçcildliyə ön sözdə yazır: "Elmira Axundovanın bu kitabı məhəbbətdən yaranıb. Belə kitablar lazımdır: onlar rəhbərlərin yeni nəslinin yetişdirilməsinə kömək edir. Bir ölkədə iki dövlətin rəhbəri olmuş Heydər Əliyevin nadir təcrübəsi xüsusilə qiymətlidir". Xalq yazıçısı, həmçinin müasir tariximizdə silinməz iz qoymuş bu dahi şəxsiyyət haqqında ürək sözlərini dilə gətirib, xatirələrini bölüşüb.

Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Musa Quliyev bildirib ki, Elmira Axundovanın 20 illik zəhmətinin bəhrəsi olan kitabın Moskvada rus dilində ikinci nəşri böyük əhəmiyyət kəsb edir. Kitabın rus dilində nəşr olunması rusdilli auditoriyanın Azərbaycan həqiqətləri haqqında, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin titanik fəaliyyəti, onun xalqımızın inkişafı və tərəqqisi yolunda göstərdiyi fədakar əmək barədə dolğun məlumat almasına kömək edir.

"Kanon-plyus" nəşriyyatının direktoru Yuri Bajko deyib ki, Heydər Əliyev müstəqil Azərbaycan dövləti üçün bir insanın həyatı boyu edə biləcəyi hər şeyi edib və nəhayət, özünün ən möhtəşəm əsərini - müasir müstəqil Azərbaycanı yaradıb.

Üçcildliyin ərsəyə gəlməsində yaxından dəstək olan xaricdə yaşayan həmvətənimiz, Ümumdünya Dağ Yəhudiləri Konqresinin sədri Akif Qilalov vurğulayıb ki, bu, çox sanballı əsərdir, onu diqqətlə oxumaq və təsirini Azərbaycanın hüdudlarından uzaqlarda da hiss etdiyimiz böyük şəxsiyyətlə təmasda olmaq lazımdır.

İkinci kitab ("Kreml beşilliyi" - "Kremlevskaə pətiletka" ) Sov.İKP MK üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin Kremldə işlədiyi beş ili əhatə edir. Bu cilddə Heydər Əliyevin SSRİ-nin üç baş katibi - Andropov, Çernenko və Qorbaçovla münasibətlərindən bəhs olunur. Siyasi Büro daxilində münasibətlər, Heydər Əliyevin nəticələrinin aradan qaldırılmasında iştirak etdiyi qəzalar və texnogen fəlakətlər, onun xarici səfərləri, "Qorbaçov yenidənqurması"nın başlanğıcı və sonu, Dağlıq Qarabağ münaqişəsi, Heydər Əliyevin istefasının əsl səbəbləri və SSRİ-nin süqutu ikinci kitabda əksini tapıb.

Üçüncü cilddə ("Qayıdış" - "Vozvrahenie") ulu öndər Heydər Əliyevin 1990-cı ildə Vətənə, üç ildən sonra isə siyasi olimpə qayıdışından bəhs edilir. Kitabda Ümummilli Liderin Naxçıvan Muxtar Respublikasını blokadada yaşayan illərdə aclıqdan və soyuqdan, həmçinin Ermənistanın işğalından xilas etməsi əksini tapıb. Eyni zamanda, Ulu Öndərin Azərbaycanda vətəndaş müharibəsinin, ölkənin parçalanmasının qarşısının alınması, Ermənistanla uzunmüddətli atəşkəsin əldə olunması, neft strategiyası hesabına respublikanın XXI əsrə güclü iqtisadi inkişaf tempi ilə daxil olması istiqamətindəki fəaliyyəti təsvir olunub.

# Ulu Öndər Heydər Əliyev sözün həqiqi mənasında, Azərbaycanda möcüzələr yaratdı

**- Səttar müəllim, dekabrın 12-də Ümummilli Liderimiz Heydər Əliyevin anım günüdür. Azərbaycan xalqı böyük öndərimizin əziz xatirəsini hər zaman yad edir. Sizcə, Ümummilli Liderimiz Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətləri nədən ibarətdir? Xüsusilə, Ulu Öndərimizin hakimiyyətə tarixi qayıdışını necə səciyyələndirərdiniz?**

- Hər bir xalqın, dövlətin taleyi şəxsiyyətlərdən asılı olur. Ötən əsrin 90-cı illəri orta nəslin yaxşı yadındadır. 1993-cü ildə xalq Ümummilli Lider Heydər Əliyevi yenidən hakimiyyətə gətirdi. Bu elə bir vaxt idi ki, Azərbaycanın müstəqilliyi xəstə doğulmuş uşaq kimi beləkdəcə məhv olmaq üzrə idi. Özünü iqtidar elan etmiş üzdəniraq "demokratlar" xalqı, vətəni qoynuna sürüklədikləri burulğandan xilas etmək gücündə və ağlında deyildilər.

Xalq onlardan imtina etmişdi. Adlarını "demokrat" qoysalar da, sonradan məlum oldu ki, "demokratiya" məfhumundan, ümumiyyətlə, anlayışları yoxdur. Olsaydı cəmiyyətin demokratik əsaslarını təşkil edən ictimai qurumlara qarşı düşmən mövqe tutmazdılar. Həmkarlar ittifaqlarını "sovet qalığı" adlandırıb məhv etməyə cəhd göstərdilər. Onlara başa sala bilmirdik ki, həmkarlar ittifaqı necə "sovet qalığıdır" ki, ən sivil Avropa ölkələrində, o cümlədən Azərbaycanda hələ sovetlər ittifaqının adı belə məlum olmayan illərdə fəaliyyət göstərib. Hətta dünya üzrə birlikləri də var. Bu insanlar, necə deyərlər, kor tutduğunu buraxmayan kimi milyonlarla insanın üzv olduğu təşkilatımızı dağıtmaq, əvəzində özlərinə münasib marianet qurum yaratmaq istəklərindən əl çəkmirdilər ki, çəkmirdilər. Təşkilatımızın əmlakını, maddi bazasını mənimsəmək cəhdləri səngimirdi.

Xalq Cəbhəsi-Müsavat cütlüyü hakimiyyəti bir-birinin ardınca həmkarlar ittifaqının mülkiyyətinin mənimsənilməsinə dair ədalətsiz qərarlar qəbul etdi.

Hətta iş o yerə çatdı ki, prezidentə Konfederasiyanın inzibati binasının Xarici İşlər Nazirliyinə verilməsi haqqında sərəncam imzalatdırdılar. Biz bu qanundankənar hərəkətlərlə, təbii ki, razılama bilməzdik. Qanun çərçivəsində mən və tərəfdaşlarım var qüvvəmizlə müqavimət göstərirdik. Bu müqavimətı davam etdirmək üçün gücümüz nə vaxta qədər çatacaqdı bilmirdik. Amma təslim olmaq fikrimiz də yox idi. Çünki tamah saldıqları əmlak nə bizim, nə də onların idi. Bunlar hamısı uzun illər üzvlük haqqı ödəmiş yüz minlərlə işçi insanın mülkiyyəti idi. İşçi insanlar etimad göstərib bizi təşkilatın rəhbərləri seçdiklərinə görə, bu mülkiyyəti qorumağı özümuzun vicdan borcu bilirdik. Açığı, qeyri-bərabər mübarizədən yorulan, bezən vaxtlarımız da olurdu. O dövrdə Naxçıvanda yaşayan, təqiblərə, qarayaxmalara, böhtanlara, hücumlara məruz qalan, buna baxmayaraq, Muxtar Respublikanın torpaqlarının toxunulmazlığının təminatını, sakinlərin sosial-iqtisadi problemlərinin həllini bacarıqla həyata keçirən Ümummilli Lider Heydər Əliyev nümunəsi mənə və silahdaşlarıma yeni qüvvət verirdi. Mən dəfələrlə Ümummilli Liderin görüşünə getmişəm. Müqəddəs Naxçıvan torpağında Onu ziyarət etmişəm. Müdrik fikirlərlə zəngin söhbətləri nadanlar tərəfindən əzilən ruhuma nur kimi çilənib. O məni haqq iş yolunda mübarizədən çəkinməməyə çağırıb. Xalq onu paytaxta, hakimiyyət sükanı arxasına dəvət edəndə elə bilirdim məndən çox sevinəni yoxdur. Sonradan bildim ki, bütün namuslu insanlar belə düşünür.

Heydər Əliyev hakimiyyəti "bayram hədiyyəsi" kimi qəbul etmədi. Sərhədlərimizin ətrafı düşmən, daxildə düşmən əlaltıları, 



*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevin yap.org.az-a müsahibəsi*

düşmən dəyirmanına su tökənlər. Sabotajlar, torpaqlarımıza müdaxilələr, özbaşınalıq... gündəlik həyat tərzinə çevrilmişdi.

Ordu adında pərakəndə, səriştəsiz dəstələr özfəaliyyət göstərirdi. Hüquq-mühafizə orqanları da daha çox cinayətkarların müdafiəçisinə çevrilmişdi. Ümummilli Lider tək idi. Lakin arxasında bütöv bir xalq var idi. İndiki kimi yadımdadır. O, radio vasitəsilə xalqa müraciət etdi. Xalqı ona dəstək üçün Prezident Aparatının qarşısına çağırdı. Gecə yarısına qədər paytaxtdan, rayonlardan, kəndlərdən yüz minlərlə insan axışıb gəldi. Xalq "Heydər Əliyev" deyə hayqırdı. Biz Heydər Əliyevləyik! - dedi.

Tribunadan çıxış edənlər xalqın düşmənlərinə lənət yağdırdılar. Heydər Əliyevi xilaskar qismində gördüklərini bəyan etdilər. Mən də çıxış etdim. "Yüz minlərlə həmkarlar ittifaqı üzvü yeni Azərbaycanın qurucusu olan Heydər Əliyevin yanındadır və yanında olacaq" - dedim.

Ulu Öndər Heydər Əliyev, sözün həqiqi mənasında, Azərbaycanda möcüzələr yaratdı. Bəlkə Tanrının da əlini üzdüyü bir dövləti (əgər o iqtidarın idarə etdiyi qurumu dövlət adlandırmaq mümkünsə) dağılmaqdan, xırda xanlıqlara parçalanmaqdan qurtardı. Əsl demokratik, vətəndaş cəmiyyətinin əsasını qoydu və inkişaf istiqamətinə yönəltdi. Vətəndaş cəmiyyətinin demokratik qurumlarından olan həmkarlar ittifaqına münasibətə yenidən baxıldı. Xalq Cəbhəsi-Müsavat cütlüyünün sıravi insanların müəyyən qrupu arasında həmkarlar ittifaqına qarşı, qismən də olsa, yarada bildikləri inamsızlığı aradan qaldırmaq məqsədilə dövlət başçısı tərəfindən uğurlu addımlar atıldı.

**- Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan həmkarlar ittifaqlarının da həyatında tarixi dönüş oldu. Bu amil həmkarlar ittifaqlarının işinə nə dərəcədə təsir etdi?**

- 1994-cü ilin fevralında Ümummilli Liderin şəxsi təşəbbüsü və nəzarəti altında postsovet məkanında ilk dəfə olaraq Azərbaycan Respublikasında "Həmkarlar ittifaqları haqqında" qanun qəbul edildi. Bu sənəd, təşkilatımızın həyatında, mən deyərdim, inqilabi dönüş yaratdı. Dahi rəhbər vətəndaş cəmiyyətinin vacib atributlarından biri olan həmkarlar ittifaqının fəaliyyətini izləyir, lazımi məqamlarda dəstək göstərirdi. Sosialyönümlü qanunların hazırlanmasında, müzakirəsində həmkarlar ittifaqının iştirakını mütləq sayırdı.

Ümummilli Lider həmkarlar itttifaqlarının cəmiyyət üçün nə dərəcədə gərəkli, mən deyərdim ki, zəruri qurum olduğunu Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının I qurultayına göndərdiyi təbrik məktubunda təşkilatımızın varlığını istəməyən insanlara, Konstitusiyamıza əsaslanaraq, bəyan etdi: "Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında insanların əmək və sosial hüquqları təsbit edilmiş, onların həyata keçirilməsi üçün geniş qanunvericilik bazası yaradılmışdır. Dövlət siyasətinin ali məqsədlərindən biri olan əhalinin iqtisadi və sosial mənafelərinin qorunması həmkarlar ittifaqlarının fəaliyyətində də əksini tapır".

Həmin məktubda Heydər Əliyev mövcud iqtisadi, sosial durumu lokanik şəkildə nəzərə çatdırdı. Bu şəraitdə təşkilatımızın fəaliyyət sferasının haradan haraya qədər olduğu sualına da aydınlıq gətirirdi: "Ölkəmizdə mühüm mərhələyə qədəm qoymuş iqtisadi islahatlar yeni təsərrüfat sisteminin tələblərinə uyğun təsisatlar və iqtisadi münasibətlər formalaşdırmış, makroiqtisadi sabitliyi təmin etmişdir. İqtisadiyyatda geriləmə hallarının qarşısı alınmış, bəzi sahələrdə nəzərəçarpacaq irəliləyiş əldə edilmişdir. Özəlləşdirmə prosesləri, mülkiyyət formalarının dəyişməsi, ələlxüsus torpağın xüsusi mülkiyyətə verilməsi dövlətə əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq imkanı vermişdir. Bütün bunlar həmkarlar ittifaqlarının fəaliyyət dairəsini və məqsədlərini kökündən dəyişməlidir. Yeni mərhələdə həmkarlar ittifaqları əmək adamlarının kütləvi və müstəqil təşkilatına çevrilərək onların iş şəraitinin yaxşılaşdırılması, əməyin təşkili, iqtisadi hüquqlarının qorunması, sosial müdafiə problemlərinin həll edilməsi yolunda daha böyük əzmlə çalışmalıdır".

Təbrik məktubunda həmçinin beynəlxalq həmkarlar ittifaqı birlikləri ilə əlaqələrimiz alqışlanır. Bu əlaqələri Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına, qarşılaşdığımız sosial-iqtisadi problemlərin həllinə yönəltməyi tövsiyə edirdi.

Ulu Öndər, ölkənin xarici, daxili problemlərinin həddən çox olmasına baxmayaraq, həmkarlar ittifaqı lideri olaraq, məni vaxtaşırı qəbul etməyə də vaxt tapırdı. Məni səbrlə dinləyirdi. Təkliflərimə, təşəbbüslərimə hörmətlə yanaşırdı. Məqbul saydıqlarının tətbiqinə, reallaşmasına köməyini göstərirdi. Tövsiyələri, məsləhətləri ilə fəaliyyətimizin daha səmərəli nəticələr verməsinə yardımçı olurdu. Təkcə tövsiyələri deyil, ölkədə apardığı sosial-iqtisadi islahatlar da həmkarlar ittifaqlarının qarşısında duran missiyanın uğurla həyata keçirməsinə bilavasitə təsir edib.

**- Ulu Öndər Heydər Əliyevin həmkarlar ittifaqlarına əsas tövsiyələri nədən ibarət idi?**

- Heydər Əliyev dövlətin sosial-iqtisadi siyasətinin reallaşdırılması işində, dövlət başçısı kimi, fəaliyyətinin sonuna qədər həmkarlar ittifaqına güvəndi. Müəllifi olduğu islahatların reallaşdırılması prosesinə uyğun olaraq qarşımıza yeni vəzifələr qoyurdu. AHİK-in II qurultayına təbrik məktubunda yazırdı: "Yeni şəraitdə həmkarlar ittifaqının cəmiyyətdəki rolu daha da artmışdır. 1994-cü ildə qəbul olunmuş "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu bu qurumun cəmiyyətimizdəki fəaliyyətinin yeni prinsiplər əsasında tənzimlənməsi və vətəndaşlarımızın sosial-iqtisadi mənafelərinin qorunmasında fəal iştirak üçün hüquqi baza yaradır. Həmkarlar ittifaqları hazırkı dövrdə əmək prosesinə cəlb olunmuş Azərbaycan vətəndaşlarının hüquqlarının müdafiəçisi kimi ölkəmizdə fəaliyyət göstərən bütün müəssisələrdə, o cümlədən xarici sərmayə ilə işləyən təşkilatlarda, transmilli şirkətlərdə iş şəraitinin müasir standartlara uyğunlaşdırılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində yeni metod və vasitələrdən istifadə edərək daha ardıcıl və məqsədyönlü fəaliyyət göstərməlidirlər. Vətəndaşlarımızın ən böyük ictimai təşkilatı olan həmkarlar ittifaqları yeni cəmiyyət quruculuğunda yaxından iştirak etməli, sosial siyasətin həyata keçirilməsində önəmli rol oynamalıdırlar".

Heydər Əliyev təşkilatımızın sıralarının genişləndirilməsi, fəaliyyətimizin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində apardığımız işlərə qayğı göstərməklə yanaşı, onun beynəlxalq aləmdə tanınması naminə özünün şəxsi və vəzifə nüfuzundan da istifadə edirdi. AHİK-in keçirdiyi I və II qurultaylarında iştirak edən xarici qonaqları qəbul etdi. Çıxış edərək bildirdi ki, "Azərbaycan həmkarlar ittifaqları böyük gücə malikdir". Əlbəttə, ölkə başçısının xarici qonaqlar qarşısında təşkilatımıza verdiyi bu qiymət bizim üçün qürurverici idi.

Görüşlərdə iştirak etmiş xarici qonaqların nümayəndələri aldıqları xoş təəssüratları dərhal bizimlə bölüşürdülər. Etiraf edirdilər ki, Azərbaycan nadir ölkələrdəndir ki, dövlət başçısı həmkarlar ittifaqlarına dövlətin sosial siyasətinin aparıcı qüvvələrindən biri kimi münasibət bəsləyir. Qonaqlarımız uzun müddət bu görüşün təəssüratlarını unutmadılar. Hər dəfə hansısa beynəlxalq tədbirdə qarşılaşanda həmin görüşü xatırladırdılar.

**- Səttar müəllim, bu gün ölkəmizin dinamik inkişafı fonunda həmkarlar ittifaqları hansı nəticələr əldə etməkdədir?**

- Ulu Öndər Heydər Əliyevin göstərdiyi mənəvi dəstək təşkilatımızı həm cəmiyyətimizdə, həm də beynəlxalq həmkarlar ittifaqı hərəkatında nüfuz sahibi etmişdir. AHİK hökumət və işəgötürənlərlə Baş Kollektiv Saziş imzalamaqla, qanun yaradıcılığı prosesinə qatılmaqla, cəmiyyətimizin sosial-iqtisadi həyatının fəal iştirakçılarından birinə çevrilmişdir.

AHİK hazırda 29 xarici ölkənin 34 həmkarlar ittifaqı mərkəzi ilə birbaşa əməkdaşlıq edir. Sıralarında 163 ölkədən 331 üzv təşkilatı, 207 milyon həmkarlar ittifaqı üzvünü birləşdirən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının üzvüdür. Yeri gəlmişkən deyim ki, AHİK-in sədri həm də bu qurumun vitse-prezidentidir. Biz xalqın təşkilatlandığı qurum olaraq Heydər Əliyevin xalq üçün etdiklərini unutmuruq.

Heydər Əliyev elə şəxsiyyətlərdəndir ki, fədakar əməyi, xalqına, vətəninə sonsuz məhəbbəti, sivil dövlət quruculuğu istəyi və yüksək peşəkarlığı, uzaqgörənliyi sayəsində Azərbaycan tarixində özünə əbədiyaşar heykəl qoydu. Bütün uğurlarımızda Heydər Əliyevin qoyduğu təməli görürük. O, bizə təkcə müasir, əbədiyaşar dövlət əmanət etmədi. Həm də zərgər dəqiqliyi ilə qurduğu dövlətimizi gələcəyə inamla apara biləcək davamçı bəxş etdi. Bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir. Onun rəhbərliyi altında Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Fəaliyyəti ilə Heydər Əliyev yolunun nə dərəcədə doğru olduğunu bir daha sübut etdi. O, gələcəkdə də bu siyasi kursa layiqincə əməl edəcəyini dəfələrlə xalqının diqqətinə çatdırmışdır. Ümummilli liderin anım günlərinin birində bir daha bu sədaqətini təsdiqləmişdir: "Heydər Əliyevin siyasətini həm iqtisadi islahatların aparılmasında, həm də xarici siyasətin aparılmasında və bütün başqa sahələrdə davam etdirəcəyik. Əlbəttə ki, onun sadiq olduğu azərbaycançılıq ideologiyasını biz bundan sonra da həyata keçirəcəyik".

# Yeni Azərbaycan Partiyasının "Xalq üçün" devizi ilə seçki təbliğatı uğurla keçirilir

## Ağdaş





Ağdaş rayonunda bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat kampaniyası uğurla davam edir. Seçicilərlə növbəti görüşlər rayonun Qaradağlı və Gürcüva kəndlərində keçirilib.

Görüşləri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının Bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi İsa Eminov Bələdiyyə seçkilərində YAP tərəfindən Ağdaş rayonu üzrə 26 bələdiyyəyə 242 namizəd irəli sürüldüyünü bildirib. Yeni Azərbaycan Partiyasının növbəti bələdiyyə seçkilərinə "Xalq üçün" devizi altında çox ciddi proqramla getdiyini vurğulayan İ.Eminov görüş iştirakçılarını, ötən beş il ərzində, görülmüş işlərlə tanış edib. YAP-ın Seçki Proqramında öz əksini tapan və növbəti beş ildə həyata keçirilməsi nəzərdə tutulan layihə və işlər barədə danışıb. Qeyd edib ki, YAP-ın müasir Azərbaycan dövlətinin qurulmasında, xalqın rifahının ildən-ilə yüksəlməsində və ümummilli inkişafımızda əvəzolunmaz xidmətləri olmuşdur.

YAP Mərkəzi Seçki Qərargahı Ağdaş rayon şöbəsinin üzvü Elçin Əhmədov çıxışında qeyd edib ki, yerli idarəetmə institutu olan bələdiyyələrin ölkəmizdə formalaşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır, məhz 1995-ci ildə qəbul olunmuş ilk müstəqil Konstitusiyamızda bələdiyyələrin fəaliyyəti üçün müvafiq qanunvericilik bazası formalaşıb: "Cəmiyyətimizdə rolu ildən-ilə artır və onların səmərəli fəaliyyətinin təşkili üçün zəruri qanunvericilik bazası və müvafiq strukturlar tam formalaşıb. Partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində, ölkəmizdə yerli özünüidarə orqanları olan bələdiyyələrin fəaliyyətinin genişlənməsi üçün münbit şərait yaranmışdır.

Qaradağlı Bələdiyyəsinin üzvlüyünə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən Əli Musayev, seçicilərdən Həmidə Əliyeva, Aidə Səmədova və Mürşüd İsmayılov çıxışlarında YAP-ın müasir Azərbaycan dövlətinin qurulmasında, xalqın rifahının ildən-ilə yüksəlməsində və hərtərəfli inkişafımızda əvəzolunmaz xidmətlərindən danışıblar. Vurğulanıb ki, bütün seçki kampaniyalarında olduğu kimi, bələdiyyə seçkilərində də xalqımız YAP tərəfindən irəli sürülən namizədləri dəstəkləyəcək və YAP növbəti möhtəşəm uğurunu qazanacaq.

## Qusar





Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatında təbliğat-təşviqat kampaniyası çərçivəsində gənc seçicilərlə görüş keçirilib.

Tədbiri görüş sözü ilə açan YAP Siyasi Şurasının üzvü, rayon təşkilatının sədri David İbramxəlilov bələdiyyə seçkilərinin mühüm əhəmiyyətini qeyd edib. Ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən, dövlət siyasətinin nəticəsi olaraq, gənclərin idarəetmə orqanlarında və seçki proseslərindəki iştirakının durmadan artdığını qeyd edib.

Qusar Bələdiyyəsinin üzvlüyünə namizəd Əlfəddin İbrahimov, eləcə də, gənc seçicilər çıxış edərək, YAP-ın yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığını və ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin uğurla inkişaf etdiyini vurğulayaraq, görülən işlərin müqabilində, xalqımız tərəfindən partiyamızın namizədlərinə səs verəcəklərini qeyd ediblər.

## İsmayıllı





Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatı bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun səhiyyə işçiləri ilə növbəti görüşünü keçirib.

Görüşü giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova bildirib ki, bələdiyyə seçkiləri ölkəmizin siyasi həyatında mühüm yer tutur: "İnanırıq ki, seçicilərimizin hər biri 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak edəcək, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklər".

Tədbirdə, həmçinin, partiya fəalları çıxış edərək, rayonda bələdiyyə seçkilərinin ədalətli, şəffaf və müvafiq seçki qanunvericiliyinə uyğun formada həyata keçirilməsi məqsədilə, təbliğat-təşviqat işlərinin uğurla yekunlaşacağını və bu seçkilərdə də Yeni Azərbaycan Partiyasının namizədlərinin qalib gələcəyinə əmin olduqlarını bildiriblər.

## Quba





Dünən dekabr ayının 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatı I Nügədi inzibati-ərazi dairəsi üzrə Qaraçay kəndində seçicilərlə görüş keçirib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının Bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Yusif Abidov bildirib ki, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində, respublikamızın inkişafı sürətlənib və hər bir vətəndaş bunu öz sosial həyatında hiss edir: "Ölkəmizin ümumi inkişafına öz töhfəsini verən YAP-ın resurslarının güclənməsi də, məhz keçirilən seçkilərdə öz təsdiqini tapır. YAP hər zaman xalqa xidmət prinsipini prioritet kimi seçki proqramlarında əsas götürüb. "Xalq üçün" şüarı ilə bələdiyyə seçkilərində iştirak edən YAP, seçicilərin dəstəyilə qarşısına qoyduğu hədəflərə çatacaq".

O bildirib ki, bu gün, nəinki Azərbaycanın, bütövlükdə, regionun ən böyük və mütəşəkkil partiyası olan YAP-ın uğurlarının əsasında xalq sevgisi və dəstəyi dayanır: "Məhz bu dəstəyin nəticəsində, partiyamız yarandığı tarixdən bu günə qədər ölkəmizdə keçirilən bütün siyasi kampaniyalarda, seçki prosesində qalib gəlib".

Tədbirdə Qaraçay kənd sakini Ayməzov Sadiq çıxış edərək, 23 dekabrda ölkəmizdə çox mühüm bir kampaniyanın keçiriləcəyini, 1999-cu ildən yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin vəzifələrindən danışaraq, qeyd edib ki, bu qurumun fəaliyyəti xalqa səmərəli xidmət göstərmək və yerli sosial məsələlərin həllinə daha peşəkar yanaşmaqdan ibarətdir. Bələdiyyə seçkilərində Qaraçay kənd sakinlərinin, əvvəlki seçkilərdə də olduğu kimi, fəal iştirak edəcəklərini vurğulayıb.

Görüşdə təbliğat qrupunun üzvləri - YAP Quba rayon təşkilatı aparatının rəhbəri Hüseyn Kərimov, YAP Quba rayon təşkilatı gənclər birliyinin sədri Əhməd Bəkirli, Amsar kənd orta məktəbinin direktoru Habil Bayramlı və 200 nəfərə yaxın seçici iştirak edib.

Ardı Səh. 12

# HEYDƏR ƏLİYEV: ZAMAN, ŞƏXSİYYƏT VƏ ƏBƏDİYYƏT...



İSA HƏBİBBƏYLİ,
AMEA-nın vitse-prezidenti,
Milli Məclisin Elm və Təhsil
Komitəsinin sədri

Belə bir reallıq var: böyük siyasət - zamanın fövqünə qalxa bilən və onu ifadə edən, cəmiyyəti istiqamətləndirən siyasətdir. Eyni zamanda, şəxsiyyət və zaman münasibətlərində də şəxsiyyət ağırlıq təşkil etdikdə, zaman irəli gedir. Şəxsiyyət zamanı idarə etməyi, qabaqlamağı, irəli aparmağı bacardıqda isə, tarixi şəxsiyyətə çevrilir. Belə tarixi məqamlarda şəxsiyyət zamanı yaradır və ona öz damğasını vurur.

Ulu Öndər Heydər Əliyev böyük zəka və iradə ilə zamanı, nəinki idarə etmiş, qabaqlamış hətta irəli aparmışdır. Sözün əsl mənasında, Heydər Əliyevin simasında şəxsiyyətin miqyası mövcud cəmiyyətin səviyyəsindən yuxarıda dayanmış və onun inkişaf yollarına işıq salmışdır.

## Tarixi mərhələdə tarixi addım

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ölkəmizin tarixində öz epoxasını yaratmış qüdrətli tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1969-1982 və 1993-2003-cü illər çoxəsrlik Azərbaycan tarixinin Heydər Əliyev epoxası dövrüdür.

Birinci mərhələni əhatə edən 1969-1982-ci illər Azərbaycan tarixinin qızıl dövrü hesab edilir. Bu tarixi mərhələdə Azərbaycan keçmiş Sovetlər İttifaqında geridə qalmış bir respublikadan inkişaf etmiş ölkə səviyyəsinə yüksəldilmişdir. İqtisadiyyatın bütün sahələri üzrə göstəricilər rekord həddə çatdırılmış və xalqın yaşayış səviyyəsi köklü surətdə dəyişmişdir. Lakin iqtisadi göstəricilər əsas olsa da və digər istiqamətlərdə olan inkişaf üçün stimullaşdırıcı faktor funksiyası daşısa da, "qızıl dövr" - milli intibah mərhələsi üçün tam yetərli deyildir. Bunun üçün mütləq cəmiyyətin hərtərəfli inkişafı və harmoniyası baş verməli, xüsusən, elmi-ədəbi-mədəni gedişat və milli-mənəvi özünüdərk prosesləri dərinləşməli və zamanın miqyası səviyyəsinə çatdırılmalıdır.

Məhz görkəmli dövlət xadimi Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycan Sovet Respublikasında qazanılan iqtisadi göstəricilərdən daha yüksək səviyyədə xalqın milli-mənəvi intibahını formalaşdırmağa nail olmuşdur. Bu dövrdə Azərbaycan elminin, ədəbiyyatının və mədəniyyətinin canlı klassikləri formalaşmış, keçmiş Sovetlər İttifaqında və onun hüdudlarından kənarda da şöhrət qazanmışdır. Azərbaycan Milli Elmlər Akademiyası inkişaf etdirilmiş və əldə etdiyi mühüm nailiyyətlərə görə, 1975-ci ildə "Xalqlar dostluğu" ordeninə layiq görülmüşdür. Azərbaycan Yazıçılar İttifaqı, Bəstəkarlar İttifaqı və Rəssamlar İttifaqı nüfuzlu yaradıcılıq təşkilatları səviyyəsinə qaldırılmışdır. Bir sözlə, 1969-1982-ci illərdə Azərbaycanda elm, ədəbiyyat və mədəniyyət sahəsinin müvəffəqiyyətləri ilə iqtisadiyyat sahəsindəki yüksək nailiyyətlər biri digərini tamamlamışdır. Daha dəqiq qiymətləndirməli olsaq, respublikada elm, ədəbiyyat və incəsənət istiqamətində qazanılan müvəffəqiyyətlər Azərbaycan xalqı üçün xüsusi əhəmiyyətə malik olmuşdur. Çünki Sovet hakimiyyəti illərində, istər-istəməz, yüksək iqtisadi göstəricilərin bir hissəsi İttifaq büdcəsinə getdiyi halda, ədəbi-mədəni və elmi sərvətlər, bütövlükdə, mənsub olduğu xalqın mənəvi xəzinəsinin zənginləşdirilməsinə xidmət etmişdir.

## Azərbaycan dili milli-mənəvi sərvətimizdir!

Dahi Öndər Heydər Əliyevin siyasi iradəsi sayəsində Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusunda yer alması kimi parlaq hadisələr xalqda milli-mənəvi özünüdərk proseslərinin dərinləşdirilməsinə və milli iftixar hissinin qiymətləndirilməsinə səbəb olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin dövrün superdövləti olan SSRİ rəhbərliyində yüksək vəzifə tutması, böyük nüfuz qazanması, Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü səviyyəsində fəaliyyət göstərməsi, sözün əsl mənasında, xalqımızın qürur mənbəyinə çevrilən hadisələr olmuşdur.

Azərbaycanlı gənclərin Sovetlər İttifaqının ən qabaqcıl ali məktəblərində çoxlu sayda təhsil almalarının təmin edilməsi, milli intibah baxımından, bir neçə məsələnin həllində mühüm rol oynamışdır. İlk növbədə, Azərbaycan Respublikasına gənc və yüksək ixtisaslı mütəxəssislərin böyük enerjisi daxil olmuşdur. Keçmiş Sovet respublikalarında fərqli dilləri və mədəniyyətləri mənimsəmiş bu nəsil Azərbaycanda geniş dünyagörüşünün, fərqli yaradıcı baxışların əsasında formalaşmış yeni təfəkkürün inkişaf etdirilməsinə ciddi təsir göstərmişdir. Möhkəm milli təfəkkürün fərqli baxışlarla sintezi Azərbaycan insanının mənəvi dəyərləri qoruyub-saxlamaq və daha da möhkəmləndirmək şərti ilə həm də həyata, proseslərə, inkişafa yeni gözlə baxmasını, ölkənin böyük gələcəyinin qurulmasında daha yaxından və fəal surətdə iştirak etməsini şərtləndirmişdir. Xüsusən, mühəndis-texniki, kənd təsərrüfatı, fizika-riyaziyyat və informatika, avtomatlaşdırma və telemexanika ixtisasları üzrə ölkəyə qayıtmış gənc mütəxəssislərin gətirdiyi enerji respublikamızda yeni sənaye müəssisələrinin və aqrar sahənin qurulmasına, elmi-texniki tərəqqinin inkişafına böyük imkanlar açmışdır.

## Heydər Əliyev missiyasının nəhəng addımı

XX əsrin yetmiş-səksəninci illərinin "qızıl dövrü" çoxəsrlik Azərbaycan tarixinin xüsusi, özəl səhifələrinə çevrilmişdir. Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə yeni dövr Azərbaycan tarixinin qızıl səhifələri yazılmışdır. Həmin dövrün ədəbiyyatının "Biz elə ucaldıq, elə ucaldıq, Siyasi Bürodan gəldi səsimiz" kimi poetik qənaətləri xalqın cəmiyyətə açılmış qanadlarına dəstək vermişdir. Beləliklə, Azərbaycan Sovet Sosialist Respublikasında milli-mənəvi özünüdərk proseslərinin dərinləşdirilməsi və genişləndirilməsindən doğan reallıq milli iftixar hissinin daha da yüksəlməsinə lazımi şərait yaratmışdır. Deməli, Heydər Əliyevin simasında həqiqətən və şəxsiyyət zamanı irəli aparmış, onu daha böyük gələcəyə doğru istiqamətləndirmişdir. Bu məqamda, şəxsiyyət, onun qüdrəti və miqyası ölkəni irəli aparan ən böyük güc və qüvvət səviyyəsində dayanmış, əsas hərəkətverici qüvvə funksiyasını həyata keçirmişdir. Azərbaycan xalqının tarixində ən keşməkeşli dövrlərdən olan birinci mərhələ ilə ikinci mərhələ arasındakı 1983-1993-cü illəri əhatə edən aralıq dövr də, əslində, Heydər Əliyevin adı ilə üzvi surətdə əlaqədardır. Birincisi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi məsul və mühüm bir vəzifədə çalışdığı illərdə Heydər Əliyev Sovet dövlətinin əsas rəhbərlərindən biri kimi Azərbaycan Respublikasına İttifaq büdcəsindən daha çox vəsait ayrılmasına nail olmağı bacarmışdır.

Bundan başqa, Heydər Əliyevin sayəsində SSRİ nazirlikləri Azərbaycandakı həmkarlarına əlavə qapılar açmış, öz köməklərini əsirgəməmişlər. Eyni zamanda, əvvəllər hər hansı məsələni keçmiş İttifaq dövləti səviyyəsində həll etmək üçün aylarla Rusiya paytaxtına gedib-gəlməli olan Azərbaycan nazirliklərinin rəhbərləri Heydər Əliyevin Kremldəki mövqeyinin və nüfuzunun işığında bütün problemlərin ən qısa vaxtda və lazım olan səviyyədə həllinə nail olmuşlar.

İkincisi, Heydər Əliyev 1990-1993-cü illərdə Azərbaycanın ayrılmaz üzvi tərkib hissəsi Naxçıvanda yaşayarkən və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik edərkən, ölkəmizin bu tarixi ərazilərinin qorunub-saxlanılmasını təmin etməklə, əslində, geniş mənada, çətin şəraitdə vətənə, ölkəyə və xalqa xidmət göstərmişdir. Bu mərhələdə də Heydər Əliyevin simasında şəxsiyyət faktoru zaman amilinə qalib gəlmişdir. Çətin blokada vəziyyətinə salınmış, Azərbaycanın paytaxtı ilə yalnız hava yolundan başqa daha heç bir əlaqəsi qalmamış, Ermənistan tərəfdən gələn elektrik enerjisi, qaz xətləri də kəsilmiş Naxçıvan Muxtar Respublikasında yaşamış Heydər Əliyevin bu regionun taleyindəki əvəzsiz rolunu və xidmətlərini heç nə ilə müqayisə etmək olmaz. Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin dünyada qəbul olunan adı, parlaq şəxsiyyəti və böyük nüfuzu Naxçıvan Muxtar Respublikasının xilasında misilsiz rol oynamışdır.

## Müqəddəs bayrağımızın tarixi yüksəlişi - Naxçıvandan başlanan zəfər yolu

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikası ali sovetlərinin deputatı seçilmiş Heydər Əliyevin 17 noyabr 1991-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyəti dövrünün üçrəngli bayrağını Azərbaycanın dövlət bayrağı kimi qəbul etdirən qərarlar çıxarmağa nail olması zamanına görə təkrarsız qəhrəmanlıqdır. Hələ Sovetlər İttifaqının yıxılmasından on bir ay əvvəl SSRİ-nin dövlətçilik atributlarından rəsmi şəkildə imtina edilməsi və əvəzində, həmin derjavanın düşmən elan etdiyi Azərbaycan Xalq Cünhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul olunması bu superdövlətin dağılmağa başlamasının start nöqtəsi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclaslarında regionda Milli Ordunun yaradılması, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün müəyyən olunması, 1990-cı ilin Qanlı Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi və nəhayət, SSRİ-nin saxlanıb-saxlanılmaması haqqında referendumda muxtar respublikanın iştirak etməməsi haqqında qəbul edilmiş qərarlar ümumölkə miqyaslı ictimai-siyasi hadisələr olub, həm Azərbaycanda, həm də keçmiş Sovetlər İttifaqında milli-azadlıq hərəkatının genişlənməsinə və qələbəsinin təmin edilməsinə, ölkəmizdə müstəqil dövlətin qurulub- möhkəmləndirilməsinə görkəmli dövlət xadimi Heydər Əliyevin böyük xidmətləridir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illər şəxsiyyət və dövlət münasibətlərinin geniş imkanlarını və böyük əhəmiyyətini tam mənası ilə meydana qoymuşdur. Müstəqilliyin başlanğıc illərinin böyük çətinliklərini yaşamış, hakimiyyətdə olan "siyasilər"in səbatsızlığı ucbatından torpaqlarını itirmiş Azərbaycan xalqı 1993-cü ildə yenidən Azərbaycan rəhbərliyinə qayıtmış Heydər Əliyevin böyük sınaqlardan çıxmış əzəmətli şəxsiyyəti ətrafında sıx və möhkəm surətdə birləşmişdir. Dövlət və xalq birliyi, Ulu Öndərin şəxsiyyətinə sonsuz inam və böyük ehtiram müstəqil Azərbaycan dövlətinin bir çox taleyüklü məsələlərinin həll edilməsində əvəzsiz rol oynamışdır.

Heydər Əliyevin dönməz dövlətçilik mövqeyi, şəxsiyyətindəki qətiyyət, uzaqgörənlik və zəngin təcrübəsi Onun gənc Azərbaycan Respublikasında xilaskarlıq missiyasını uğurla həyata keçirməsinə imkan yaratmışdır. Xalqın Heydər Əliyevin şəxsiyyətinə və siyasətinə sonsuz inamı dövlət başçısının çağırışlarının bütün ölkə boyu hər yerdə geniş əks-səda tapması və dönmədən yerinə yetirilməsi ilə nəticələnmişdir. Müstəqilliyin başlanğıc illərində ayrı-ayrı məkrli qüvvələr tərəfindən törədilmiş dövlət çevrilişi cəhdləri zamanı dövlət başçısı Heydər Əliyevin müraciətinə, bütünlüklə qoşulan Azərbaycan xalqı, sözün əsl mənasında, şəxsiyyətin ətrafında birlik və mütəşəkkillik nümayiş etdirmişdir.

## "Xalq-Heydər!" vəhdəti

Məşhur "Xalq Heydər söyləyəcək, Heydər xalqım deyəcək" mahnısı Azərbaycan xalqının dahi rəhbərin şəxsiyyətinə və fəaliyyətinə sonsuz ehtiramının əks-sədası kimi meydana çıxmışdır.

Belə ki, 1994-cü ildə Bakı şəhərində məşhur "Əsrin müqaviləsi" imzalanarkən, xarici sərmayədarların Azərbaycan Respublikasının rəhbərinə olan dərin inamı həlledici rol oynamışdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin çəkilişinə başlanarkən də, Heydər Əliyev faktoru əsas amil olmuşdur. Çünki həmin dövrdə Azərbaycanda hələ sabitlik tam bərqərar olmamış, iqtisadi vəziyyətdəki böhran aradan qaldırılmışdı. Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyi bütün mümkün təhlükələrdən xilas etmiş, ölkədə ictimai-siyasi sabitlik yaratmış və gələcək böyük inkişafın möhkəm təməllərini formalaşdırmışdır. Onun, müstəqil Azərbaycana rəhbərlik etdiyi on il ərzində, Azərbaycan normal inkişaf templərinə malik olan və dünyada öz sözü ilə seçilən müstəqil bir dövlət kimi qəbul olunmuşdur. Beləliklə, Heydər Əliyev 1969-cu ildən başlanan və müstəqillik illərində uğurla davam edən böyük və şanlı bir epoxa yaratmışdır. Heydər Əliyev epoxası Azərbaycanın çoxəsrlik tarixinin şərəfli bir mərhələsidir.

Bu gün bu siyasətin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yorulmaz və məqsədyönlü fəaliyyəti ilə böyük sürətlə və hərtərəfli şəkildə inkişaf edən müstəqil dövlətimizin, xalqımızın inkişaf yollarına yeni, parlaq və qiymətli səhifələr əlavə edir.

Nəticədə, bu gün Azərbaycan Respublikası bütün istiqamətlər üzrə inkişaf edib, yeniləşir. İndi, inkişaf baxımından, Azərbaycan Respublikasının regionları ilə ölkəmizin paytaxtı arasında fərq aradan qalxmışdır. Aparılan düzgün siyasət sayəsində, artıq iqtisadiyyatın bütün sahələrində - həm aqrar sahə, həm də sənaye üzrə böyük inkişaf göstəriciləri əldə olunmuşdur.

Davos Forumu, Dünya Bankı kimi ciddi beynəlxalq təşkilatlar Azərbaycanı müasir mərhələdə ən rəqabətədavamlı ölkələrdən biri hesab edirlər. Bu, Prezident İlham Əliyevin müstəqil Azərbaycana qazandırdığı mühüm nailiyyətdir. Xalqından qüvvət alan, ölkəsinin və dünyanın gələcək inkişaf yollarını aydın surətdə görən və millətini böyük gələcəyə doğru səfərbər edən Prezident İlham Əliyev müstəqil Azərbaycanı düşünülmüş şəkildə və uğurla zamandan-zamana aparır.

İlham Əliyevin müəyyən etdiyi Heydər Əliyev yolu - müstəqil Azərbaycan dövlətinin və xalqımızın əbədiyyət yoludur. Prezident İlham Əliyev həmin parlaq yolun və böyük gələcəyin qüdrətli təminatçısı və mahir sükançısıdır. Aparılan məqsədyönlü siyasət müstəqil Azərbaycan dövlətini yeni və daha geniş magistrallara çıxarmağa uğurla xidmət edir.

# Yeni Azərbaycan Partiyasının “Xalq üçün” devizi ilə seçki təbliğatı uğurla keçirilir

Əvvəli-Səh-11

### Binəqədi





Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında 23 dekabr tarixində ölkəmizdə keçiriləcək V çağırış Bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP tərəfindən Binəqədi rayonu bələdiyyələri üzrə namizədliyi irəli sürülmüş qadınlarla qadın seçicilərin görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri, YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov ölkəmizdə yaradılan seçki mühitindən, vətəndaşlarımızın seçmək hüququndan, Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlığından və namizədlər haqqında məlumat verib: “Rayon təşkilatı ötən seçkilərdə olduğu kimi, budəfəki Bələdiyyə seçkilərinə də yüksək səviyyədə hazırlaşaraq, namizədlərlə seçicilərin silsilə görüşlərini təşkil edir.”

Görüşdə YAP-ın Binəqədi qəsəbə Bələdiyyəsi üzrə irəli sürülmüş namizədi, YAP Binəqədi rayon təşkilatı qadınlar şurasının sədri Aytac Əliyeva, Binəqədi Bələdiyyəsi üzrə irəli sürülmüş namizədi, YAP Binəqədi rayon təşkilatının baş məsləhətçisi Kubra Əliyarlı, Biləcəri Bələdiyyəsi üzrə irəli sürülmüş namizədi, Biləcəri Bələdiyyəsinin sədr müavini Samirə Həsənova, Xocasən Bələdiyyəsi üzrə irəli sürülmüş namizədi, YAP Binəqədi rayon təşkilatının gənc fəalı Fidan Əhmədzadə, Rəsulzadə Bələdiyyəsi üzrə irəli sürülmüş namizədi Jalə Sadıqova və digərləri çıxış edərək, bildiriblər ki, seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi olaraq, iştirak etmək qürurvericidir. Onlar Bələdiyyələrin qarşısında duran həlli vacib məsələlərə toxunaraq, gələcəkdə bələdiyyələrdə təmsil olunacaqları təqdirdə, həmin məsələlərin həlli istiqamətində səylə çalışacaqlarını və seçicilərin etimadını doğruldacaqlarını vurğulayıblar.

Görüşdə çıxış edən Milli Məclisin sədr müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova namizədlərə öz tövsiyələrini verib. Qeyd edib ki, bu gün ölkəmizin sürətli inkişafı dövlət başçısı İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir: “Bələdiyyə qurumlarında təmsil olunan şəxslər də, bu siyasətə paralel olaraq, uğurla fəaliyyət göstərməli və göstərilən etimadı yüksək səviyyədə doğrultmalıdırlar. B.Muradovanın sözlərinə görə, namizədlərin seçicilərlə silsilə görüşlərinin keçirilməsi, olduqca mühüm əhəmiyyət daşıyır. Bu görüşlər yerlərdə də davam etdirilməli, əhalini maraqlandıran məsələlərin həlli ilə bağlı fikir mübadiləsi aparılmalı və onların fikirləri dinlənilməlidir. Hər bir namizədin savadı, intellekti, dünyagörüşü və siyasi yetkinliyi ilə seçilir. B.Muradova qarşıdan gələn seçkilərdə namizədlərə uğurlar arzulayıb, onların parlaq qələbə qazanacaqlarına ümidvar olduğunu bildirib. Görüşdə, həmçinin, seçicilər də çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcəklərini bildiriblər.

### Suraxanı

Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının seçki qərargahında bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində gənc seçicilərlə görüş keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bələdiyyə seçkilərinin mühüm əhəmiyyətini qeyd etmiş, eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və sistemli islahatlar nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan bəhs edərək cəmiyyətdə gənclərin rolundan danışıb.

Milli Məclisin deputatı Sevinc Fətəliyeva çıxış edərək, ölkəmizdə alternativsiz siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının şəhər və rayon təşkilatlarının həyata keçirdikləri təbliğat-təşviqat kampaniyasında yüksək seçki əhval-ruhiyyəsi müşahidə olunduğunu bildirib. Yeni Azərbaycan Partiyasının, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də qalib gəlmək əzmində olduğunu vurğulayıb və partiyanın bələdiyyələrin işinin yüksəldilməsi üçün səmərəli tədbirlər həyata keçirdiyini qeyd edib.

Görüşdə çıxış edən fəal gənclərdən Zərnişan Abidova, Arzu Məmmədli, Eldar Mirzəliyev, rayon gənclər birliyinin sədri Fərəh Məcidzadə, Azərbaycanda ötən dövr ərzində, bələdiyyə institutunun formalaşdığını və bu seçki prosesində də gənclərin rolunun əvəzsiz olduğunu qeyd etmiş, qarşıdan gələn bələdiyyə seçkilərində gənc namizədlərin say çoxluğunun iş prosesinə müsbət təsir göstərəcəyinə əminliyini bildirib və Yeni Azərbaycan Partiyası namizədlərinə uğurlar arzulayıb.







**ZÜMRÜD BAYRAMOVA**
**Nəzakət ƏLƏDDİNQIZI**

# Türkiyəli səfir: TANAP layihəsi Azərbaycanın və Türkiyənin birgə uğurlu fəaliyyətini dünyaya bir daha sübut etdi

***Azərbaycan və Türkiyə iş adamları Ukraynada birgə iqtisadi layihələrin reallaşdırılması istiqamətində işlər görür. Bu fikri Türkiyənin Ukraynadakı səfiri Yağmur Əhməd Güldərə söyləyib.***



Səfir qeyd edib ki, Ukraynada azərbaycanlı və türk iş adamlarının birgə iqtisadi layihələrin həyata keçirilməsi üçün çox böyük potensial var. “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamı Ukraynada da tətbiq edilir. Azərbaycan və Türkiyənin Ukraynada birgə fəaliyyəti üçün səfirlər səviyyəsində çox sıx müzakirələr aparılır. Ukraynada 500 minə yaxın azərbaycanlı, 30 min türk vətəndaşı yaşayır. Biz burada böyük bir ailəyik. Ortaq iqtisadi layihələrin gerçəkləşdirilməsi üçün müzakirələr aparılır”, - deyə səfir əlavə edib.

Bu günlərdə Azərbaycan və Türkiyənin prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimində iştirakına dair sualı cavablandıran Y.Ə.Güldərə bildirib ki, Avropanın enerji təhlükəsizliyi məsələsi olduqca aktualdır, hətta NATO-nun əsas platformasına daxildir. TANAP layihəsinin gerçəkləşdirilməsinə nail olmaq üçün Azərbaycan və Türkiyə birgə böyük bir yol keçib, çətinlikləri aradan qaldırıb. “Bu layihədən bir çox ölkələr faydalanacaq. Avropa ölkələri alternativ yolla təbii qaza sahib çıxacaqlar. Bu meqalayihə Azərbaycan və Türkiyənin birgə uğurlu fəaliyyətini dünyaya bir daha sübut etdi”, - deyə səfir söyləyib. Türkiyəli diplomat vurğulayıb ki, Azərbaycanın regionda rolu, nüfuzu artmaqdadır. Türkiyə Azərbaycanın regionda daha da güclənməsinə dəstək verməkdə davam edəcək.

# Azərbaycanda istehsal olunan şprislərin standartı müəyyənləşib



***Azərbaycanda istehsal olunan şprislərin standartı müəyyənləşib. SİA-nın məlumatına görə, bunu Səhiyyə nazirinin müavini Elsevər Ağayev jurnalistlərə deyib.***

O qeyd edib ki, 3 hissəli şprislərin qadağan olunması ilə bağlı məlumat yoxdur: “Bu cür şprislər bütün dünyada istifadə olunur. Buna görə də 3 hissəli şprislərin saxta olması iddiası ilə bağlı əhalini yanlış yola yönlətmək düzgün deyil. Azərbaycanda istehsal olunan şprislər müqsir tələblərə görə 2 hissəlidir. Bu şprislərin standartları Azərbaycanın müvafiq institutu tərəfindən və təsdiq olunub. Biz Azərbaycana idxal olunan şprislərlə bağlı öz qurumlarımıza tapşırıq vermişik. Apteklərdə yoxlamalar aparılan zaman onlardan nümunələr götürülür və Səhiyyə Nazirliyinin laboratoriyaları tərəfindən sterilliyi bir daha yoxlanılır”.

# Kamil Mirzəyev: "Qələbə və zəfər faktoru Yeni Azərbaycan Partiyasının adı ilə bağlıdır"

***"Artıq Azərbaycanda bələdiyyə seçkilərinə start verilib və xalqımız seçki iradəsinə söykənərək, dekabrın 23-də keçiriləcək səsvermə nəticəsində, bələdiyyələrin yeni tərkibi seçiləcək". Bu fikirləri "SƏS" qəzetinə YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev deyib.***

Onun sözlərinə görə, demokratik seçki mühitinin mövcudluğu, eyni zamanda, bələdiyyə institutunun inkişafı və tərəqqisinə də öz töhfələrini verməkdədir. SİTAT: "16 minə yaxın insan ölkənin yerli özünüidarə orqanlarında təmsil olunacaq, regionların idarə olunmasında, sosial və iqtisadi problemlərinin həll olunmasında, bütünlükdə, inkişafın təmin edilməsi prosesində yaxından iştirak edəcəklər ki, bu da, bilavasitə Azərbaycan Prezidenti İlham Əliyevin apardığı çoxşaxəli islahatlar siyasətinə öz uğurlu töhfələrini verəcək. Məhz bu baxımdan, Yeni Azərbaycan Partiyası növbəti bələdiyyə seçkilərinə ciddi hazırlaşıb, öz namizədlərini müəyyənləşdirib və onların qələbə qazanacaqlarına böyük inam hissi ilə yanaşır. Söz yox ki, bununla bağlı, partiyanın İcra Katibliyinin tövsiyə və tapşırıqları da əldə ediləcək



zəfərlərimizə, böyük dəstək göstərir. Bizlər, birmənalı şəkildə, əminik ki, YAP tərəfindən irəli sürülən namizədlər seçkilər zamanı əhalinin dəstəyini qazana biləcək.

"Mən bu arada, Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini -İcra katibi Əli Əhmədovun seçkilər ərəfəsində irəli sürdüyü fikrini də xatırlatmaq istərdim" deyən K.Mirzəyev əlavə edib ki, bələdiyyə seçkiləri partiyanın mütəşəkkilliyinin, resurslarının səfərbər edilməsi imkanlarının sübuta yetirilməsi üçün böyük imkandır: "Həmçinin, bələdiyyələr partiya üzvləri üçün münbit təcrübə məktəbidir ki, xüsusilə, gənclərimiz bələdiyyə seçkilərində iştirak etməklə, zəruri seçki kampaniyasını aparmaq təcrübəsini qazanır və bu xüsusda, lazım olan bütün faktorlardan istifadə edərək, gələcək ictimai-siyasi həyatlarını müəyyənləşdirirlər. Əbəs deyil ki, zamanında bələdiyyə sədrləri olmuş YAP üzvləri sonradan parlamentdə təmsil olunublar və bu amil özündə önəmlilik daşıyır. Həmçinin, ölkədəki demokratik mübarizə mühitinin, sağlam siyasi rəqabətin qorunub-saxlanmasının yanaşmasına nəzər salsaq, əminliklə deyə bilərik ki, bələdiyyə seçkiləri də öz əhəmiyyəti ilə seçilir və yüksək qiymətləndirilir. Bu baxımdan, bələdiyyə seçkilərinə qatılacaq bütün partiyadaşlarımıza uğurlar, yeni-yeni nailiyyətlər və zəfərlər arzu edirəm. Çünki qələbə və zəfər faktoru Yeni Azərbaycan Partiyasının adı ilə bağlıdır".

YAP Biləsuvar rayon təşkilatının sədri, onu da bildirib ki, bələdiyyə seçkilərinə "Xalq üçün xidmət devizi ilə qatılan Yeni Azərbaycan Partiyası seçki kampaniyasının uğurla başa çatdırılması məqsədilə, yüksək səviyyəli hazırlıq prosesini yekunlaşdırıb və Biləsuvarda da bu proses uğurla başa çatdırılıb, seçki kampaniyasının operativliyini təmin etmək məqsədi ilə seçki qərargahları yaradılıb. "Bu baxımdan da, seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq, partiya üzvlərimiz olan namizədlər seçki rəqabətinə və uğur qazanmağa tam hazırdırlar".

***RƏFİQƏ KAMALQIZI***

# Səudiyyə Ərəbistanının İnformasiya naziri AZƏRTAC-ın İdarə Heyətinin sədri, UNA-nın İcraiyyə Şurasının üzvü Aslan Aslanov ilə görüşüb

***Dekabrın 11-də Ciddədə Səudiyyə Ərəbistanı Krallığının İnformasiya naziri Turki Abdullah əş-Şəbana İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) İcraiyyə Şurasının növbədənkənar iclası çərçivəsində AZƏRTAC-ın İdarə Heyətinin sədri, UNA-nın İcraiyyə Şurasının üzvü Aslan Aslanov ilə görüşüb.***

Azərbaycan haqqında xoş sözlər söyləyən səudiyyəli nazir ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin ildən-ilə inkişaf etdiyini vurğulayıb. Turki Abdullah əş-Şəbana öz sıralarında 57 İslam ölkəsinin xəbər agentliklərini birləşdirən UNA-nın İcraiyyə Şurasının və Baş Assambleyasının Ciddədə keçirilən növbədənkənar iclasında müzakirə olunacaq məsələlər barədə fikirlərini bildirib.

Görüşdə Səudiyyə Ərəbistanında



Azərbaycana böyük maraq göstərildiyi, ölkəmizlə əlaqələrə xüsusi önəm verildiyi diqqətə çatdırılıb. Həmçinin UNA-nın fəaliyyətinin təkmilləşdirilməsi, informasiya sahəsində qarşıda duran çağırışların birgə həlli yollarının tapılmasının vacibliyindən danışılıb. Qeyd olunub ki, müasir dövrdə baş qaldıran islamofobiya və İslamın terrorizmlə əlaqələndirilməsi ciddi narahatlıq doğurur. Sülh və qardaşlıq dini olan İslama qarşı yönələn feyk xəbərlərlə mübarizə İƏT-in üzv ölkələrinin milli xəbər agentliklərinin fəaliyyətinin əsas istiqamətlərindən biri olmalıdır.

İslam ölkələrinin xəbər agentlikləri ilə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığı münasibətlərinin qurulduğunu deyən Aslan Aslanov bildirib ki, AZƏRTAC ilə Səudiyyə Ərəbistanının SPA agentliyi arasında əlaqələr nümunəvi səviyyədədir. Biz bu əlaqələrin inkişafı istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik. Nazir Turki Abdullah əş-Şəbana yaxın zamanlarda Azərbaycana səfər etmək və onun inkişafını öz gözləri ilə görmək arzusunda olduğunu deyib.

# PKK parçalanmağa davam edir

***PKK terror təşkilatı parçalanmağa davam edir. SİA-nın verdiyi xəbərə görə, Türkiyənin Daxili İşlər Nazirliyinin yaydığı bəyanatda 2019-cu ildə terror təşkilatının 247 üzvünün Türkiyə təhlükəsizlik qüvvələrinə təslim olduğu bildirilib.***

PKK-nın parçalanmasını nümayiş etdirən açıqlamada "İraqın şimalındakı terror təşkilatına aid sığınacaqlardan qaçan daha 3 terrorçu Şırnakda təhlükəsizlik qüvvələrinə təslim olub. 2019-cu ildə bu 3 terrorçu ilə bərabər separatçı ter-



ror təşkilatının 247 üzvü Türkiyə təhlükəsizlik qüvvələrinə təslim olub", - deyə qeyd edilib.



Təhmasib Novruzov

## Tariximizin ən böyük zirvəsi

***Hər bir qələm adamı, yazar üçün ən məsuliyyətli və ən şərəfli bir mövzuya müraciət etmək cəsarətini özümdə necə tapa bildim, bilmirəm. Amma tapdım. Bəlkə də bu ölməz düha ilə bir neçə dəfə görüşməyim, həmin görüşlərdəki səmimiyyəti, millətinə, canından çox sevdiyi Azərbaycana bəslədiyi qeyri-adi sevgini şəxsən duymağım məndə belə bir cəsarətə rəvac verdi. Böyük mütəfəkkir Karl Marksın dostu Fridrix Engelsə məktubundan bir cümləni xatırladım: "Dünyada ən böyük tarix yaradan türklərdir ki, yaratdıqları tarixi yazmaqda da ən tənbəl xalq yenə türklərdir!" K.Marksın fikrini bu günə kimi təkzib edən nə bir tarixçi, nə də bir siyasətşünas olmayıb. Nə yazıqlar ki, bu bir gerçəkdir və bizlər yaratdığımız, bəşəriyyətin inkişafında ən böyük rol oynayan tariximizi hələ də doğru-düzgün öyrənə və öyrədə bilmirik.***

Bu baxımdan, yaxın keçmişimizin gerçəklərini və ümumən, dünyaya yenilik gətirən bu gerçəkliyin müəllifini, memarını və banisini daha dərindən öyrənməyimizə, gələcək nəsillərə də öyrətməyimizə ehtiyac var. Təbii, oxucum söhbətin Azərbaycan tarixinin ən qüdrətli simalarından biri, ötən əsrin sonlarında dünyanın düzəninə yenilik bəxş etmək qədər əzəmətli bir missiyanı fenomen bacarıqla yerinə yetirən Ümummilli Lider HEYDƏR ƏLİYEVDƏN getdiyini anladı. Atilladan başlamış Nadir şaha qədər, zaman-zaman tarixin təkərini mənsub olduğu xalqın arzuları istiqamətinə döndərməyi bacaran böyük sərkərdələr yetişdirən Azərbaycan türkü, ötən minilliyin sonunda yenidən bu missiyanı böyük əzəmətlə həyata keçirən bir dühanı bəxş etdi bəşəriyyətə. Belə bir düha haqqında bir köşə yazısında heç bir qələm adamı qəlbindəki istəklərini tam əks etdirən yazı ortaya qoya bilməz. Fəqət, Ulu Öndərin anım günü ərəfəsində susmağı da hər qələm adamı bacarmaz. Susmayıb yazmaq, istədiklərini kiçik bir köşə yazısına sığışdıra bilmədiyindən qələm adamı az sözlə daha geniş fikirlər səsləndirmək üçün bütün söz ehtiyatını səfərbər etməlidir. Mən də belə etmək istədim. Ancaq bir zamanlar şəxsən görüşmək, saatlarla fikir mübadiləsi aparmaq nəsib olmuş adi bir insan hansı qüdrətli sözlərdən istifadə etməlidir ki, Onun əzəmətini, fenomen fəaliyyətini, sevgilərlə dolu dünyasını əks etdirə bilsin? Bir zamanlar böyük şairimiz Rəsul Rza kommunist ideologiyası rəhbərlərinin təzyiqi ilə "Lenin" poeması yazmışdı. Həmin poemada dünyanın bütün peşələrinin ən ustadı kimi təqdim olunan Lenin haqqında düşünəndə, nədənsə, həmişə mənə elə gəlirdi ki, böyük şair sanki Azərbaycanın böyük düha sahibinin gələcəyinə inanmış və Lenini bəhanə edərək, o düha sahibini bu qədər güclü qələmlə vəsf etmişdi. Əminliklə deyərdim ki, əgər R.Rza bu gün yaşasaydı, həmin misraları, məhz HEYDƏR ƏLİYEVƏ ithaf etdiyini açıq deyərdi. Çünki böyük dühaların qüdrətini özündə əks etdirən həmin misralar Lenin kimi şəxsi intiqamçıya deyil, məhz Ulu Öndər kimi Vətən, Xalq fədaisinə daha çox yaraşardı. Şübhə etmirik ki, zaman gələcək, HEYDƏR ƏLİYEV dühasının millətə qoyub getdiyi irsin nə qədər əzəmətli olduğunu görüb, qələminin gücünə inanan bir söz bahadırı çıxacaq və bu əzəmətə layiq misraları ard-arda düzəcək. İndilikdə isə, bu böyük AZƏRBAYCANLI haqqında hələ də o əzəməti özündə ehtiva edən və hər kəsin ürəyini təlatümə gətirən misraların yolunu gözləməkdəyik. Bəlkə də kimsə buna cəsarət etməkdən çəkinir. Ancaq əminik ki, bir gün xalqımıza belə bir qüdrəti bəxş edən Tanrı, o qüdrətin əzəmətini vəsf edə biləcək bir söz sərrafını da bəxş edəcək...

QƏBRİN NURLA DOLSUN, BÖYÜK AZƏRBAYCANLI!

# Əli Kərimlinin "Milli Şura"sı namizəd tapa bilmir

## "Boykot"un da səbəbi budur



*Yenə də köhnə təfəkkürlə "boykot" oyunu. Bu, təəccüb də doğurmur. AXCP sədri Əli Kərimlinin siyasi sistemdə ənənəvi hoqqabazlığıdır. Çünki bu gün müxalifət düşərgəsində olan siyasi partiyaların böyük hissəsi, hətta ənənəvi olaraq, indiyədək "boykot" taktikası ilə hərəkət etmiş bəzi partiyalar seçkidə xalqı öz seçicisinə çevirmək yolları üzərində düşündüyü halda, "Milli Şura" subyektləri, xüsusən də, AXCP sədri Ə.Kərimli cəmiyyəti "boykot"a səsləyir, insanların onun bu çağırışına heç bir məhəl qoymadığını bildiyi təqdirdə, çoxillik uğursuz üsulunu davam etdirməkdədir.*

Onu da xalq yaxşı bilir ki, Ə.Kərimli bu günə kimi, ölkədə keçirilən seçkiləri "boykot" çağırışı ilə çıxış etməyinin əsas səbəbi sosial bazasızlığını ört-basdır etmək, ölkədə siyasi vəziyyəti qarışdırmaqdır və kompromissiz pozuculuq rolunda çıxış etdiyini təsdiqləyir. Çünki Ə.Kərimlini maraqlandıran seçki yox, seçki prosesi üstündə hakimiyyətin ünvanına mümkün qədər ittiham bəhanələri istehsal etməkdir. Bu amil isə, bir daha sübut edir ki, sonrakı mərhələlərin seçki-siyasi proseslərində "boykot"çu radikallara yer olmayacaq.

### Əli Kərimli nə istəyir və kimi "boykot" edir?

Bəllidir, Ə.Kərimli yaxşı bilir ki, satqınçılıqla məşğul olan bayquş kimi tək qalar. AXCP sədrinin parlament seçkiləri ilə bağlı "boykot" çağırışı ilə növbəti hoqqabazlığının da səbəbi 125 dairə üzrə, nəinki müşahidəçi, komissiya üzvü, heç deputatlığa namizəd də tapa biləcək durumda deyil. Ona görə də, ən yaxşı yol "boykot"dur deyir. Belə olan halda, gəlin görək, bu kimi məsələlərdə günahkar, həqiqətən də, yalnız Ə.Kərimlidirmi? Uzun illərdir ki, ənənəvi və naftalin qoxusu verən düşərgənin daxilində və xaricində İ.Qəmbərin, R.Quliyevin, A.Hacılının və sairlərinin var-gəl etmələrinə rəğmən, ortaya bir şey çıxara bilməmələri, sözün əsl mənasında, onların başağrılarına çevrilib. Belə başağrılarından biri də "AMDP"-nin sədri İsgəndər Həmidovdur ki, özü-öz başına oyun açıb. Daha dəqiq desək, "zirvə" deyilən müxalifət "birliyini" bir araya gətirib, "liderlik" sevdasına düşən "AMDP" sədri elə ilk dəfədən "uzun illərin müxalifətçi dostları" adlandırdığı şəxslər tərəfindən bir kənara atıldı.

Bütün bunların baş verməsinin əsas dərdi xaricdən gələn qrantlardır. Göründüyü kimi, səbəblər və nəticələr çoxdur, amma onların məcmusu "Milli Şura"nın əsl rəhbərinin Ə.Kərimli olduğunu açıq-aydın göstərir və indi də belədir.

Aşkar və aydın görünən budur ki, AXCP, habelə, Ə.Kərimlinin ətrafında satellit qismində mövqe tutmuş kiçik və mikroskopik partiyalar seçki formasından istifadə etmək niyyətlərində deyil. Bundan başqa, hansısa partiyanın seçkilərdə iştirakla bağlı şərtlər irəli sürməsi, siyasi fəaliyyətdə anormal bir vəziyyətdir. Məlum olan odur ki, Ə.Kərimlinin bu günə kimi puç olan xəyalları bu dəfə də puç olacaq.

**R.HÜSEYNOVA**

# Müxalifət AXCP-"Milli Şura" cütlüyünün əleyhinədir

## Düşərgə parlament seçkilərinə qatılır və radikal çağırışları rədd edir

***Parlament seçkiləri ərəfəsində müxalifət düşərgəsində də müəyyən canlanma hiss olunur. Lakin düşərgənin bir qismindən fərqli olaraq, müxalifətin dağıdıcı qanadı "gah boykot", gah da hər hansı aksiya mövzuları ətrafında gündəmdə qalmağa cəhdlər göstərirlər. Daha dəqiq desək, AXCP-"Milli Şura" cütlüyünün bu ətrafda var-gəl etmələri müxalifətin digər cinahları tərəfindən rədd edilməkdədir. Seçkilərə qatılacaqlarını bəyan edən müxalifət partiya və qurumlarının böyük qismi, ümumiyyətlə, mitinq, aksiya və s. kimi məsələlərin tələb olmadığını bildirir və bu qərarı rədd edirlər.***

### ADP sədri Sərdar Cəlaloğlu: "Müxalifətin seçkiöncəsi ümumi şəkildə mitinqlər keçirməsi mümkünsüz görünür"

Misal üçün, ADP sədri Sərdar Cəlaloğlu mətbuata açıqlamasında bildirir ki, müxalifətin seçkiöncəsi ümumi şəkildə mitinqlər keçirməsi mümkünsüz görünür. O, bunu belə izah edib ki, düşərgədəki partiyalar blok və birlik şəklində seçkilərə qatılmır. Bu baxımdan,



aksiyaların keçirilməsinə də heç bir ehtiyac yoxdur. ADP sədri, hətta blokların yaradılmasının da səmərəsiz olduğunu deyərək, bunun üçün çox az zaman qaldığını qeyd edib: "Hazırda görünən odur ki, siyasi partiyalar seçkilərə tək gedirlər. Blok yaratmaq üçün seçkilərə qalan müddət çox azdır. Gərək aylar öncədən blok elan olunardı".

"Müxalifətin seçkiöncəsi ümumi şəkildə mitinqlər keçirməsi mümkünsüz görünür" deyən S.Cəlaloğlu bəyan edib ki, o və partiyası nə boykot taktikasını və nə də mitinqlər keçirməyin tərəfdarı deyil. O, sadəcə, seçkilərə hazırlaşmağın vacib amil olduğunu deyib.

### AMİP-in katibi Əli Orucov: "Mitinq mövzusu aktual deyil"



AMİP-in katibi Əli Orucov isə, belə qənaətə gəlib ki, 9 fevralda keçiriləcək parlament seçkilərinə, ehtimal olunur ki, hər bir partiya müstəqil şəkildə qatılacaq və belə olan halda, mitinqlərə və hər hansı aksiyalara ehtiyac qalmır. "Çünki namizədlər təbliğat-təşviqatlarını fərdi qaydada öz dairələrində quracaqlar" deyən müxalifət partiyasının təmsilçisi mitinq yükünün altına girməyin mənasız olduğunu bildirib: "Mitinq mövzusu bu gün üçün aktual deyil..."

Beləliklə, AXCP-"Milli Şura" cütlüyünün düşərgədaxili boykot cəhdlərinin nəticəsiz qaldığını bəri başdan düşünmək olar. Çünki yalnız ADP və AMİP deyil, o cümlədən, digər müxalifət partiyaları da, seçkilərə qatılmaq qərarlarını veriblər.

**Rövşən RƏSULOV**



# Arif Hacılı bu dəfə necə düşükləyir?

**RÖVŞƏN**
rovsen.rasulov@mail.ru

Parlament seçkiləri ərəfəsində müxalifətin vargəli, seçkilərdə iştirak etmək qərarı və marağı başadüşülən və hətta tədqirəlayiq addımdır. Bu, demokratik ictimai-siyasi mühitdə, seçki ab-havasının göstəricisi kimi də qiymətləndirilə bilər. Düzdür, düşərgənin radikal qanadı hesab edilən AXCP-"Milli Şura" cütlüyü və cəmiyyətdə heç bir nüfuzları olmayan ayrı-ayrı şəxslərin, "boykot" qərarlarını çıxarsaq, bütövlükdə, müxalifətin seçkilərə qatılmaq qərarı, parlamentə düşmək iddialıların mövcudluğu siyasi gündəmə müəyyən rənglər qatır. Bəri başdan deyə bilərik ki, boykot qərarını verən tərəflər, əslində, namizəd tapa bilmirlər və hətta məğlub olacaqlarını da indidən dərk edirlər. Amma bu da, öz yerində...

Məsələnin digər tərəfi isə, seçkilərə qatılıb, iddia irəli sürənlərin həmin iddiaları çərçivəsində, necə deyərlər, ağını çıxarmalarıdır. Söhbət adının mühacir ticarətində hallandığı Müsavatın saxta başqanı A.Hacılıdan gedir. Belə yerdə, adama deyərlər ki, seçkilərə qatılırsansa, xub, qatılıb, siyasi mövqeyini ictimailəşdirməyi planlaşdırırsansa, çox pakizə, hətta sona qədər mübarizə apararaq, təmsil etdiyin siyasi partiyanın maraqlarını gen-bol təbliğ edəcəksənsə, lap əla, amma...

Amması isə, budur ki, axı nəyə görə A.Hacılı, sözün əsl mənasında, düşük, başından böyük fikirlər səsləndirərək, hələ də ictimai rəyin ona ünvanladığı sualları cavablandırmır? Yəni saxta sənədlər satıb, insanları dələduzluq yolları ilə Avropaya göndərən, indi isə deport edilən vətəndaşların ah-naləsini boynunda daşıyan Hacılı, indi də, parlament seçkilərinə qatılmaq qərarlarını vermiş müsavatçılar arasında siyasət və dövlət xadimlərinin, keçmiş parlament üzvlərinin, professorların, elmlər doktorlarının, hüquqşünasların, vəkillərin, politoloqların, gənc siyasi fəalların və s. olduqlarını bəyan edib. Bu da, əliyül-əla! El dili ilə desək, bu meydan, bu da şeytan. Lakin həmin mövzunu davam etdirənə qədər, qayıdım bir az əvvəlki illərə...

Yəni şeytan demişkən, elə həmin müsavatçıların sabiq başqanı İsa Qəmbəri xatırlaya bilərik ki, o, dəfələrlə öz maraqları, dividendləri xatirinə şeytanlarla və cinlərlə belə əməkdaşlıq etdiyini gizlətməyib. Xatırlaya bilərik ki, bir zamanlar həmin bu İ.Qəmbər Almaniyada erməni milli konqresinin o zamankı təmsilçisi Aram Manukyanla separat danışıqlara gedib və Müsavat partiyası ilə erməni təşkilatı arasında memorandum imzalamışdı. Yaxud bu, həmin adamdır ki, 1992-ci ilin fevralının əvvəlində "Xocalıda qırğın baş verərsə, bu müxalifətin hakimiyyətə gəlişi, Ayaz Mütəllibovun isə istefası prosesini sürətləndirəcək" tipli fikir səsləndirmişdi. Bir sözlə, bu həmin Qəmbərdir, "KQB" agenti, xain və xain olduğu qədər də siyasi bic!

Beləliklə, qayıdıram A.Hacılının seçkilərə qatılacaq müsavatçıların hansının nə işlə məşğul olması bəyanatına. O, həmin bəyanatı çərçivəsində bildirib ki, parlament seçkilərinə qatılacaq şəxslər arasında "president" olmuş şəxs də var" (???!!!-R.N.). Əcəba, görəsən, bu hansı şəxsdir ki, "president" olub və xalq da ondan bixəbərdir? Məgər yalan danışmaq bu qədərmi asandır Arif Haclı üçün? Yəqin ki, o, belə ucuz şeylərə o qədər alışıb ki, hətta bu gün-sabah həmin şəxsin, kosmosa ilk dəfə uçmuş Yuri Qaqarin, bəlkə də Roma Papası, hətta Corc Vaşinqton olduğunu da iddia edər. Nə var ki, burada, sözdür da, buraxır havaya - ya ağızdan buraxdı, ya da başqa yerindən...

Söz yox ki, A.Hacılı burada məhz müsavatçıların sabiq başqanı İsa Qəmbəri nəzərdə tutur. Fəqət, 2003-cü ilin oktyabrında xalqın seçki və seçim iradəsinin əksinə gedərək, İsa Qəmbəri zorla "prezident etmək" cəhdlərini də kimsə unutmayıb. Paytaxtda və ölkədə seçkilər fonunda ictimai-siyasi sabitliyi pozmaq cəhdləri ilə qəlyanlı "KQB" agentini zorla xalqa sırımağa çalşan Arif Hacılı yenidən həmin eşqə düşüb. Düşüb və sözün həqiqi mənasında, düşüklüyüb! Bundan sonra isə, hələ də ümid edir ki, onun namizədləri parlament seçkilərində uğur-filan qazanacaq. Amma Hacılı bir reallığı da unudub ki, bu gün xalq, siyasi dolğunluq baxımından, daha da müdrikləşib və artıq bu cür sarsaq düşüncələri bölüşmür. Hər halda, əgər A.Hacılı, həqiqətən də, seçkilərə ciddi hazırlaşırsa, bax, belə axmaq, sərsəm bəyanatları ilə, onsuz da, nüfuzu olmayan partiyasını daha ağır vəziyyətdə qoymasın...

*İslam Konfransı Təşkilatı Azərbaycan potensialından istifadə edərək, həm ümumbəşəri proseslərdə iştirak edir, həm də islam ökələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Eyni zamanda, o, islam dövlətləri ilə qarşılıqlı əlaqələrin yaradılması baxımından da, İKT və onun toplantılarını əlverişli fürsət kimi dəyərləndirir: "Bizim belə əlaqələrə ehtiyacımız var. Çünki Azərbaycanı bütün dünyada tanıtmaq üçün və Azərbaycanın indiki vəziyyətini bütün dünyaya aşkar etmək üçün hələ çox işlər görmək lazımdır. Daxilimizdə bəziləri belə hesab edirlər ki, həyatımızı, Ermənistanın Azərbaycana təcavüzü məsələsini çoxları elə bizim kimi bilir. Amma əslində, belə deyildir. Mənə məlumdur və mən bir çox ölkələrdə olarkən, siz də müşahidə etmisiniz ki, respublikamızın başına gələn bəlaları çox yerlərdə ya bilmirlər, ya da onun nə qədər dərin, ümumdünya təhlükəsizliyi üçün, xüsusən, Azərbaycanın bu günü və gələcəyi üçün təhlükəli olduğunu dərk edə bilmirlər".*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# İslam Konfransı Təşkilatı və Azərbaycan həqiqətləri

Ona görə də, o, İKT-nin yaratdığı imkanlardan istifadə etməyə, islam ölkələrinin başçıları ilə ikitərəfli görüşlər keçirməyə çalışırdı. Ulu Öndər Heydər Əliyev ikitərəfli görüşlərin Azərbaycan Respublikasının həmin ölkələrlə iqtisadi əlaqələrinin də yaranması və inkişaf etməsi baxımından, mühüm əhəmiyyəti olduğunu vurğulayırdı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, sülh yolu ilə həllinə çalışan milli lider bu istiqamətdə islam dünyasının imkanlarından da istifadə etməyi lazım bilirdi. O, həm İKT rəhbərləri, həm də islam ölkələrinin liderləri ilə çoxtərəfli və ikitərəfli görüşlərində Ermənistanın işğalçılıq siyasəti və onun nəticələri haqqında məlumatlar verir, onları bu məsələyə münasibətdə daha prinsipial mövqe nümayiş etdirməyə çağırırdı. Bu zaman islam həmrəyliyinə sözdə deyil, əməldə nail olmağı təklif edirdi. Bəzi hallarda, o, islam dövlətlərindən gözləntilərini açıq şəkildə ifadə etməkdən də çəkinmirdi. Məsələn, 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına səfəri zamanı bir jurnalistin: "Ermənistan ilə Azərbaycan arasındakı müharibə neçə ildir davam edir? Bu müddətdə islam dünyasından nə kimi kömək görmüsünüz?" sualına Heydər Əliyev cavab vermişdi ki, az-çox kömək görmüşük. Ancaq qeyri-islam dövlətlərinin Ermənistana etdikləri yardım qədər islam dövlətləri Azərbaycana kömək göstərsəydilər, biz erməni silahlı qüvvələrini ərazimizdən çoxdan qovaraq, torpaqlarımızı azad etmişdik. Səudiyyə Ərəbistanına səfəri zamanı İKT-nin baş katibini əvəz edən Osman Notari ilə görüşündə Azərbaycanla İKT arasında əlaqələrin genişləndirilməsi, ölkəmizin qarşısında duran problemlərin həllində təşkilatın imkanlarından daha səmərəli istifadə olunması barədə fikir mübadiləsi aparıldı. Həmin görüşdə Azərbaycan dövlətinin başçısı İKT-dən gözləntilərini də dilə gətirərək demişdi ki, İKT dünyanın nüfuzlu təşkilatlarından biridir və sizin dediyiniz kimi, o, islam ölkələrinin bütün problemləri ilə yaxından tanış olmağa çalışır... İKT-nin üzvü olan ölkələr arasında Azərbaycan qədər çətin vəziyyətdə olanı yoxdur. Azərbaycan islam ölkəsidir, İslam dini hazırda burada özünə layiqli yer tutur. Ermənistan isə qeyri-islam ölkəsidir və dünyanın qeyri-islam olan böyük dövlətlərinin köməyi nəticəsində, o, respublikamızı belə çətin bəlalara salıb.

İKT və islam ölkələri Azərbaycana yaxından kömək göstərməli, respublikanın çətin vəziyyətdən çıxması üçün yollar axtarmalıdırlar. Həmin ilin noyabrında Prezident Heydər Əliyevin İKT Baş katibi Həmid əl-Qabidlə Bakıda keçirdiyi görüşlər və apardığı danışıqlar respublikamızla qurum arasındakı əlaqələri fəallaşdırmaqla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, ilk dəfə olaraq, İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salınmasına səbəb oldu. Münaqişənin həlli yollarının dünya səviyyəsində araşdırılması baxımından, bu məsələ mühüm əhəmiyyət kəsb etdi. 1994-cü ilin dekabrında Prezident Heydər Əliyev İKT-yə üzv ölkələrin dövlət və hökumət başçılarının VII konfransında iştirak etdi. Bu, Azərbaycanın dövlət başçısının İKT-nin ali məclisində ilk iştirakı idi. Zirvə toplantısı dekabrın 13-dən 15-dək Kasablanka şəhərində (Mərakeş) keçirilirdi. Heydər Əliyevin Zirvə toplantısındakı dərin məzmunlu nitqi iştirakçılar arasında böyük rezonans doğurdu, toplantı tərəfindən Ermənistanın təcavüzünü pisləyən qətnamələrin qəbul olunmasında həlledici rol oynadı. Zirvə toplantısında çıxışında Ulu Öndər Heydər Əliyev göstərdi ki, biz haqlı olaraq, fəxr edə bilərik ki, islam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini vermişdir və neçə əsrdir ki, onun mənəvi inkişafına və təkmilləşdirilməsinə kömək edir. Bu gün dünyada mürəkkəb və ziddiyyətli proseslər getməkdədir: viranedici qlobal müharibənin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təməlinin qoyulması kimi müsbət meyillər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadır və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə layiqli yardım etməliyik, öz səylərimizi göstərməliyik. Bunun naminə biz müsəlman ölkələrinin inkişafına mane olan əngəlləri aradan qaldırmalı, bir-birimizə yardım əli uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlanmıza birlikdə kömək etməliyik, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməliyik.

Biz fəxr edə bilərik ki, İslam Konfransı Təşkilatı da, məhz bu nəcib məqsədlərə xidmət edir. İKT-nin dünya siyasətində mühüm amilə çevrildiyini vurğulayan Azərbaycan Prezedenti islam dünyasının və İKT-nin nəhəng potensialından hələ heç də tam, istənilən səviyyədə istifadə olunmadğını diqqətə çatdıraraq, islam ölkələrini həm öz xalqlarının, həm də bütün dünyanın tərəqqisi işində daha sanballı və daha təsirli rol oynamağa çağırmışdı. Çıxışında Heydər Əliyev Azərbaycanın mühüm geosiyasi mövqeyinə diqqəti cəlb edərək, onun miladın yeddinci əsrindən islam dünyasının bir hissəsini təşkil ediyini, Avropa ilə Asiya arasında, Qafqaz ilə Yaxın Şərq arasında mühüm coğrafi-siyasi məkanda yerləşdiyini, müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynadığını göstərmişdir. Sonra o, bütün dünya ictimaiyyətinin diqqətini Errnənistanın Azərbaycana təcavüzü məsələsinə cəlb edərək, göstərmişdir ki, bu təcavüz nəticəsində, Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal edilmişdir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasında işğal etdikləri Dağlıq Qarabağ regionunda və ona bitişik yeddi digər rayonda 16 qədim mədəniyyət abidəsi məhv edilmiş, bütün məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, Qurani-Kərimin nüsxələri yandırılmışdır. Ən qədim müsəlman sivilizasiyasının bütün izləri yer üzündən silinir. Mənim həmvətənlərimin 20 min nəfərindən çoxu öldürülmüş, təqribən, 100 min nəfəri yaralanmış və şikəst olmuş, bir milyondan artıq azərbaycanlı öz doğma yurdundan qovulmuş, onların evləri viran edilmiş və yandırılmışdır... Münaqişənin tamamilə aradan qaldırılması üçün ermənilərin bütün silahlı birləşmələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasını, qaçqınların doğma yurdlarına qaytarılmasını, Azərbaycanın bütün ərazisi üzərində onun suveren hüquqlarının bərpa edilməsini nəzərdə tutan siyasi saziş bağlanmalıdır. Lakin Ermənistan Respublikası işğal olunmuş ərazilərin azad edilməsinə dair Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirməkdən boyun qaçırır. Sülhə nail olmaq üçün beynəlxalq həmrəyliyin, təcavüzkara beynəlxalq səviyyədə təzyiq göstərilməsinin çox böyük əhəmiyyətinin olduğunu göstərən Heydər Əliyev İKT və onun hər bir üzvünü Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda ədalətli mübarizəsinə tərəfdar çıxmağı, Ermənistana təzyiq göstərməyə çağırmışdı.

Bütün dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında İKT üzvü olan dövlətlərin rolunun artırılmasına tərəfdar olduğunu bildirən Azərbaycan dövlətinin başçısı Ermənistanın Azərbaycana təcavüzünü, əslində, müsəlman dünyasına edilən təcavüz kimi qiymətləndirirdi. Səfər zamanı Azərbaycan Prezidenti bir sıra ölkələrin (Türkiyə, Misir, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Pakistan, İran, Səudiyyə Ərəbistanı, Malayziya, Bruney, Fələstin, Maldiv Adalan və s.) dövlət və hökumət başçıları, xarici işlər nazirləri ilə ikitərəfli görüşlər keçirdi. Bu görüşlər Azərbaycanla müxtəlif müsəlman ölkələri arasındakı əlaqələrin inkişafına və genişlənməsinə təkan verdi. Zirvə konfransı, bilavasitə Azərbaycanla bağlı iki qətnamə qəbul etdi. Birinci qətnamədə Ermənistanın Azərbaycana təcavüzü 52 müsəlman dövləti tərəfindən pislənilir, Ermənistan silahlı qüvvələrinin, Şuşa və Laçın da daxil olmaqla, işğal edilmiş bütün Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması tələb olunurdu.

Konfransın qəbul etdiyi ikinci qətnamə İKT-yə üzv ölkələri, islam təsisatlarını və beynəlxalq təşkilatları təcavüzə məruz qalmış, bir milyondan artıq qaçqını və məcburi köçkünü olan Azərbaycana iqtisadi və humanitar yardım göstərməyə çağırırdı. Əlbəttə, İKT kimi nüfuzlu beynəlxalq təşkilatda Azərbaycanın xeyrinə iki qətnamənin qəbul olunması, heç də asan olmamışdı. Ermənistan rəsmi və qeyri-rəsmi kanallardan istifadə edərək, islam dövlətlərinin sammitində onun əleyhinə sənədin qəbul edilməsinə səy göstərsə də, buna nail olmamışdı. Ermənistandan başqa zirvə toplantısında iştirak edən dövlətlərdən biri də Azərbaycanın haqlı mövqeyini müdafiə etməkdə tərəddüd edirdi. Bunu Heydər Əliyev Bakı Aeroportunda jurnalistlərlə görüşündə bildirmişdi: "Hazırlıq zamam bu qətnamələrin başa gəlməsi asan olmamışdır. Maneçilik törədən amillər də, hətta maneçilik göstərən dövlət də olmuşdur. Bildiyiniz kimi, belə beynəlxalq toplantılarda qərar konsensus əsasında qəbul edilir. Konsensus olmadıqda, yəni dövlətlərdən birinin razılığı olmasa, qərar qəbul edilməyə bilər. Belə bir dövlət vardı və o, Ermənistanın Azərbaycana qarşı təcavüzkar olması fikri ilə razılaşmırdı. Ona görə də, biz hazırlıq vaxtı xeyli iş apardıq. Biz Kasablankaya gəldikdə, bu qərarın müəyyən qədər təhlükə altında olduğunu gördükdə, fəaliyyətimizi daha da artırdıq. Xarici işlər nazirlərinin görüşündə bu məsələ müzakirə edildi və həmin maneələrin aradan qaldırılmasına nail ola bildik."

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*



## Qaradağda Ulu Öndər Heydər Əliyevin xatirəsi anılıb



Dünən Qaradağ rayonu, Lökbatan qəsəbəsində yerləşən Heydər Əliyev Mərkəzində Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunan dəyirmi masa keçirilib.

İlk öncə, tədbir iştirakçıları Heydər Əliyev adına Parkda Ulu Öndərin abidəsini ziyarət edərək önünə tər çiçək dəstələri düzüb, dahi şəxsiyyətə hörmət və ehtiramlarını bildiriblər. Ulu Öndərin zəngin həyatını əks etdirən qısametrajlı film nümayiş olunduqdan sonra tədbiri giriş sözü ilə açan Qaradağ rayon icra hakimiyyəti başçısının birinci müavini Emil Abbasov Azərbaycan dövlətçiliyinin söykəndiyi təməl prinsiplərinin Ulu Öndər Heydər Əliyev tərəfindən yaradıldığını qeyd edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyev özünün titanik fəaliyyəti və qətiyyətli qərarları ilə müstəqilliyimizin formalaşmasında, ölkədə sabitliyin əldə olunmasında, həmçinin, Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəldilməsində müstəsna xidmətlər göstərib. Məhz buna görə də, xalqımız Ümummilli Lider Heydər Əliyevi müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu adlandırıb.

YAP Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydın Hüseynov çıxışında Ulu Öndərin dövlətçilik səriştəsi və bacarığı ilə qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas edərək, inkişaf edən bir ölkəyə çevirdiyini vurğulayıb. A.Hüseynov Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən birinin YAP-ın yaradılması olduğunu da geniş şərh edib. Qeyd edib ki, bu gün ölkəmiz, Azərbaycan Prezidenti İlham Əliyevin yorulmaz və qətiyyətli fəaliyyəti nəticəsində, dünyanın sayılan-seçilən ən güclü və qüdrətli dövlətlərindən birinə çevrilmişdir.

Tədbirdə rayon icra hakimiyyətinin ictima-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Munis Bayramov Dahi Lider Heydər Əliyevin keçdiyi böyük və şanlı tarixi yolundan ətraflı danışaraq, həm birinci hakimiyyəti dövründə, həm də ikinci dəfə hakimiyyətə gəldiyi vaxtda Azərbaycan xalqına bəxş etdiyi titanik və zəngin zəhmətinin bəhrələrindən tədbir iştirakçılarına məlumat verib.

*RƏFİQƏ HÜSEYNOVA*

## Kürdəmirdə Ulu Öndər Heydər Əliyevin anım günü keçirilib

***Dünən YAP Kürdəmir rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin anım günü münasibətilə "Heydər Əliyev və müasir Azərbaycan gəncliyi" mövzusunda tədbiri keçirib.***



Tədbir iştirakçıları əvvəlcə rayon təşkilatının qərargahında Ümummilli Lider Heydər Əliyevin büstünün önünə gül dəstələri düzərək, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə çıxış edən YAP Kürdəmir rayon təşkilatı gənclər birliyinin sədri Rauf Abuşov müstəqil Azərbaycan Respublikasının banisi, Ümummilli Lider Heydər Əliyevin vəfatından 16 il ötdüyünü söyləyib: "Ulu Öndər Heydər Əliyevin ölməz, əbədi xatirəsini xalqımız hər an yad edir və edəcəkdir".



YAP rayon təşkilatı gənclər birliyinin idarə heyəti üzvü, Kürdəmir rayon Heydər Əliyev Mərkəzinin fond mühafizəçisi, rayon kreativ qrupunun koordinatoru Xəyyam Məlikov, təşkilatın gənclər birliyinin üzvləri şəhər 2 saylı tam orta məktəbin müəllimi Aysel Məmmədova, şəhər 1 saylı tam orta məktəbin müəllimi Sevinc Eyyubova və başqaları bildiriblər ki, tarixi şəxsiyyət olan Ulu Öndərimiz bütün həyatını dövlətçiliyimiz, xalqımızın bu günü və gələcəyinə həsr edərək güclü, sarsılmaz və qüdrətli bir dövləti - Azərbaycanı bizə bəxş etdi. Ulu Öndər Heydər Əliyevin ölməz, əbədi xatirəsini xalqımız hər an yad edir və xatırlayır. Çıxış edənlər, onu da vurğulayıblar ki, bu gün ölkə rəhbəri İlham Əliyevin uğurlu siyasəti nəticəsində, müstəqil və müasir Azərbaycanımız daha da yüksələcək.

YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli isə Ümummilli Liderimiz Heydər Əliyevin ömrünü xalqının firavan yaşamasına həsr etdiyini və Onun əziz xatirəsinin xalqımızın yaddaşında əbədi olaraq yaşayacağını bildirib.

A.Kərimli, həmçinin, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi dövlət-gənclər siyasətindən də danışaraq, bildirib ki, dövlət gənclərə daima diqqət və qayğı ilə yanaşıb.

***R.KAMALQIZI***

## ELAN

**ADPU-nun Kimya və Biologiya fakültəsinin KBM-1804 qrup tələbəsi Sosnovskaya Səbinə Lazerovnanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun İbtidai sinifdə tədrisin metodika və metodologiyası ixtisası üzrə I kurs magistrantı Həsənova Nailə İsaxan qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun İnformatika ixtisası üzrə III kurs tələbəsi Quliyeva Xatirə Əzizağa qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Ötən ay Azərbaycana gələn xarici vətəndaşların sayı 13.3% çox olub



Noyabr ayında Azərbaycana səyahət edən xarici vətəndaşların sayı 2018-ci ilin eyni ayı ilə müqayisədə 13.3% artaraq 241 minə çatıb. SİA-nın verdiyi xəbərə görə, gələnlərin sayına görə 69 minlə Rusiya, 68 minlə Gürcüstan ən yüksək göstəricilərə malikdirlər. Qeyd edilməlidir ki, gələnlərin yarıdan çoxunu, yəni 56.7%-ni bu iki ölkənin vətəndaşları təşkil edib. Faiz göstəricilərinə görə ən yüksək artım tempi müvafiq olaraq 33.5%, 40.1% və 35.5% ilə İran, eləcə də Cənubi və Mərkəzi Asiya ölkələri üçün müşahidə olunur.

Cənubi Asiya ölkələri arasında Hindistandan gələnlər arasında 76.3% göstərici ilə nəzərəçarpan artım qeydə alınıb. Türkiyə və Yaxın Şərqdən gələnlərin sayı isə 3.4 min və 2 min nəfər artaraq müvafiq olaraq 27 min və 17 min nəfər təşkil edib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**